“AŞPA-nın qərar qəbuletmə mexanizmində anti-Azərbaycan alqoritmi var”



Bax 3

Fransalı yazıçı: Azərbaycan xalqının qəhrəmanlıq salnaməsindən bütün dünya xəbərdar olmalıdır



Bax 4

Seçki məntəqələrində fiziki məhdudiyyətli seçicilər üçün xüsusi pandusla quraşdırılacaq



Bax 4




“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 017 (5982) 30 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


*Prezident İlham Əliyev: “Biz, ilk növbədə, çalışırdıq ki, ərzaq təhlükəsizliyimizi təmin edək. Bunu da demək olar ki, maksimum dərəcədə təmin edə bilmişik”*



Bax 2

# Kənd təsərrüfatında aparılan islahatlar nələr vəd edir?

## Salome Zurabişvili: Azərbaycan-Gürcüstan münasibətləri regionda sabitlik və inkişaf üçün etibarlı əsasdır



Yanvarın 28-də AŞPA-nın qış sessiyasının plenar iclası Avropa İnsan Hüquqları Məhkəməsinə hakimlərin seçkisi ilə davam edib. Plenar iclasda Polşada demokratik institutların funksiyasına dair hesabat dinlənilib və müzakirələr aparılıb. AZƏRTAC xəbər verir ki, Polşada demokratik institutların funksiyasına dair hesabatın müzakirələri zamanı deputatlar fikirlərini bildiriblər. Plenar iclasda çıxış edən Gürcüstan Prezidenti Salome Zurabişvili ölkəsinin Nazirlər Komitəsinə sədrliyi dövründə görüləcək işlərdən söz açıb, bu müddətin uğurlu olacağına əminliyini bildirib.

Bax 3

## Serj Sarkisyanın cinayət işi məhkəməyə göndərilib



Ermənistanın sabiq prezidenti Serj Sarkisyan haqqında cinayət işi məhkəməyə göndərilib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Ermənistan baş prokurorluğunun...

Bax 6

Bax 3



## Konstantin Kosaçev: Əminəm ki, 9 fevral seçkiləri beynəlxalq norma və qaydalara uyğun keçiriləcək

Əminəm ki, Azərbaycanda 9 fevral parlament seçkiləri beynəlxalq norma və qaydaların tələblərinə uyğun və yüksək səviyyədə keçiriləcək.

## Üç ölkənin tanınmış opera ulduzları Bakıya gələcək

Fevralın 22-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Cakomo Puççininin “Bohema” operası nümayiş olunacaq...




Bax 16



Bax 16

## Əliyar Ağayev Yunanıstan derbisini idarə edəcək

Azərbaycanlı hakimlər növbəti dəfə digər ölkənin yüksək liqasının vacib oyununa təyinat alıb. Bu haqda AFFA-nın saytı məlumat yayıb. Yunanıstan Futbol Federasiyasının dəvətinə əsasən, FIFA referisi Əliyar Ağayevin rəhbərlik etdiyi hakimlər briqadası Yunanıstan Super Liqasının 22-ci turu çərçivəsində fevralın 2-də keçiriləcək “Panatinaikos” - PAOK oyununu idarə edəcək.

“YAP xalqın böyük etimadı ilə parlament seçkilərində növbəti dəfə inamlı qələbə qazanacaq”



Bax 5

Koronavirus kabusu və Çin hədəfdə



Bax 4

Rusiya ölkəyə gələn əcnəbilərdən tibbi arayış tələb edəcək



Bax 16

# Kənd təsərrüfatında aparılan islahatlar nələr vəd edir?

## *Prezident İlham Əliyev: "Biz, ilk növbədə, çalışırdıq ki, ərzaq təhlükəsizliyimizi təmin edək. Bunu da demək olar ki, maksimum dərəcədə təmin edə bilmişik"*

***Son illər Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub desək, yanılmarıq. Qeyri-neft sektorunda mühüm istiqamətlərdən olan kənd təsərrüfatının inkişafının prioritet hesab edildiyi respublikamızda, ötən müddət ərzində, görülən işlər və həyata keçirilən islahatlar öz məntiqi nəticəsini verməkdədir. Bunu isə şərtləndirən əsas amillərdən biri hər region üzrə spesifik olan sahələrin müəyyənləşdirilməsi və həmin sahələrin inkişafına diqqətin artırılmasıdır.***







Artıq ənənəvi hal alan ölkə Prezident İlham Əliyevin regionlara səfərləri zamanı keçirdiyi müşavirələrdə bu sahədə qəbul edilən dövlət proqramları kənd təsərrüfatı sahəsinin şaxələndirilməsinə geniş imkanlar açacağının dəfələrlə vurğulamışdı: "Ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağıl ölkədə mühüm işlər görülür. Hazırda əsas ərzaq məhsullarına olan tələb ödənilir".

Bu gün real nəticələr özünün göstərməkdədir. Çünki etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir.

### Aqrar sahədə qeyri-neft sektorunun rolu

Məhz bu baxımdan da, Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair tədbirlər həyata keçirməkdə davam edir. Belə ki, ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirilməkdədir. Onu da vurğulamaq lazımdır ki, dövlət başçısı kənd təsərrüfatına yalnız ölkənin ərzaq təhlükəsizliyini təmin edən əsas sahə kimi baxmır, həm də qeyri-neft bölməsinin aparıcı sektoru kimi yanaşır. Əgər bu gün Azərbaycan fermeri, kənd təsərrüfatı məhsulları istehsalçısı bütün vergilərdən azaddırsa, onlara əkib-becərmək üçün maddi yardım olunursa, motor yağı, yanacaq güzəştli qiymətlərlə satılırsa, aşağı faizlərlə kreditlər verilirsə, toxum, gübrə problemlərinin həllini dövlət öz üzərinə götürürsə və daha neçə-neçə əlverişli şərait, işgüzar mühit yaradırsa, stimullaşdırıcı tədbirlər görürsə, bu, ilk növbədə, Prezident İlham Əliyev tərəfəindən gələn təşəbbüslərdir.

### Sahibkarlara dövlət dəstəyi reallıqları

Prezident İlham Əliyev regionlara mütəmadi səfərləri zamanı keçirdiyi müşavirələrdə dövlət tərəfindən verilən dəstəkdən danışarkən bildirib ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstəkdən danışıb: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur. İlk növbədə, əgər biz vergi siyasətinə nəzər salsaq, görərik ki, ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa".

Ölkə Prezidenti, həmçinin, fermerlərə göstərilən dövlət dəstəyindən danışaraq bildirib ki, bu dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir: "Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır... Fermerlərə subsidiyalar verilir. Qeyd etdiyim kimi, güzəştli şərtlərlə kreditlər verilir. Yanacağın, gübrənin böyük hissəsi dövlət tərəfindən təmin edilir və metodik tövsiyələr verilir. Dövlət tərəfindən verilən tövsiyələr əsasında 40-a yaxın müasir aqropark yaradılır. Yəni sahibkarlara, fermerlərə dövlət tərəfindən bu qədər dəstək verilir və biz bunun nəticəsini də görürük. Sahibkarlar da, fermerlər də bu işlərə məsuliyyətlə yanaşırlar, götürülmüş kreditlər vaxtında qaytarılır. Növbəti illərdə bütün sahələr üzrə konkret işlər görüləcək".

Ölkə Prezidenti, keçirdiyi müşavirələrdə, həmçinin, fermerlərə göstərilən dövlət dəstəyindən danışarkən, bildirir ki, ən böyük dəstək fermelərin müasir texnika ilə təmin edilməsidir: "Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır. Dünən təsərrüfatlarla tanış olarkən, mən yeni texnikanı da gördüm. Bu texnikasız kənd təsərrüfatını inkişaf etdirmək, ümumiyyətlə, mümkün deyil".

### Ərzaq təhlükəsizliyinə xidmət edən daha bir qurum - Qida Təhlükəsizliyi Agentliyidir

Bu gün etibarlı təminat Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir və son illərdə qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində ciddi addımlar atılır. Qida Təhlükəsizliyi Agentliyinin yaradılması da, məhz əhalinin keyfiyyətli qidalarla təminatı üçün vacib addımdır.

Bir sözlə, Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Kənd təsərrüfatı xərclərinin dövlət büdcəsindəki xüsusi çəkisinin ilbəil artırılması isə, onu deməyə əsas verir ki, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevriləcəkdir.

*RƏFİQƏ KAMALQIZI*

# "AŞPA-nın qərar qəbuletmə mexanizmində anti-Azərbaycan alqoritmi var"



***"Avropa Şurası Parlament Assambleyasının zaman - zaman Azərbaycana qarşı qərəzli mövqedən çıxış etməsi yenilik deyil. Bu barədə dəfələrlə deyilib, səbəbləri göstərilib. Lakin AŞPA-nın dünən Avropada KİV-lərin azadlığına və jurnalistlərin təhlükəsizliyinə dair qəbul etdiyi 2317 saylı Qətnamədə Azərbaycana qarşı əsassız tənqidlərin səsləndirilməsi onu söyləməyə əsas verir ki, qurumun ölkəmizə qarşı qərəzi xroniki hal alıb". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün facebook səhifəsində paylaşdığı "AŞPA-nın qərar qəbuletmə mexanizmində anti-Azərbaycan alqoritmi" sərlövhəli məqalədə bildirib.***

Əli Əhmədov qeyd edib ki, Azərbaycan surətli inkişaf və transformasiya dövrünü yaşayır. Onun seçdiyi yolun uğurlu davamı bir çox amillərlə yanaşı aşkarlığı, informasiya azadlığını, dünyaya açıqlığı nəzərdə tutur. Avropa ilə əməkdaşlıq, tərəfdaşlıq, iqtisadi əlaqələrin genişləndirilməsi, informasiya mübadiləsi ölkəmizin seçdiyi yolla irəliləməsinə təkan verən əsas şərtlərdir. Eyni zamanda, Azərbaycan daim milli və dövlət maraqlarını üstün tutmasını da açıq və qəti şəkildə bəyan edir. Bütün məsələlərdə olduğu kimi söz və mətbuat azadlığına münasibət də Azərbaycanda Konstitusiyada və qanunlarda təsbit olunmuş azadlıqlar kontekstində öz həllini tapır. Azərbaycanın söz və mətbuat azadlığının geniş qorunduğu ölkələr sırasında olduğunu sübuta yetirən onlarla səbəb sadalamaq mümkündür.

YAP Sədrinin müavini vurğulayıb ki, bütün bunların fonunda AŞPA-nın yuxarıda qeyd olunan qətnaməsində Azərbaycan hakimiyyətini jurnalistlərə qarşı "repressiyalara" son qoymağa çağırması təəccüb doğurmaya bilməz. Təkcə onu demək kifayətdir ki, Avropanın nüfuzlu beynəlxalq qurumlarından biri olan AŞPA özünün uydurduğu "repressiyaların" nədən ibarət olmasını aydın şəkildə izah edə bilmir. Azərbaycana qarşı "ittihamları" əsaslandırmaq üçün bu mötəbər qurumun istifadə etdiyi 2 "arqumenti" nümunə olaraq gətirmək istəyirəm. Birinci arqumentin mahiyyəti ondan ibarətdir ki, jurnalistlərə qarşı istənilən sanksiyaların tətbiq edilməsi dayandırılsın. Belə bir təklifin (yaxud tələbin) səsləndirilməsinin insan hüquqları və qanunun aliliyi prinsipləri baxımından nə dərəcədə doğru və ədalətli olmasını buraxaq vətəndaşların öz mühakiməsinə. Belə çıxır ki, AŞPA Azərbaycanı hansısa niyyətlər xatirinə tənqid etmək naminə jurnalistləri ayrıca bir kastaya ayırmaq dərəcəsinə qədər qeyri-demokratik yanaşma nümunəsi ortaya qoymaqdan belə çəkinmir. Əgər jurnalist qanunları pozursa, cinayət törədirsə, digərlərinə qarşı böhtan atır, günahsız insanları ən ağır şəkildə təhqir edirsə, deməli onlara qarşı heç bir hüquqi tədbir görülə bilməz və görülməməlidir. Bəs belə olan halda jurnalistin əməlləri nəticəsində təhqir olunan, mənəvi terrora məruz qalan insanların hüquqları necə qorunmalıdır?

AŞPA-nın məlum qətnaməsində Azərbaycana qarşı "iddia" həm də jurnalistlərin dövlət tərəfindən mənzillə təmin olunması kimi absurd arqumentə əsaslanır. Guya hakimiyyət bu yolla jurnalistləri ələ alır. Azərbaycanda mənzilə ehtiyacı olan bir çox kateqoriyadan olan insanlar dövlət tərəfindən mənzillə təmin olunur. Bunların ən çoxsaylısı məcburi köçkünlərdir. Hər il Azərbaycan dövləti məcburi köçkünlərin evlə təmin olunması üçün yüz milyon manatlarla vəsait ayırır. Xatırlatmaq yerinə düşərdi ki, əhalinin bu kateqoriyasının məskunlaşdığı şəhərciklərin sayı artıq 100-ü keçib. Yaxşı olardı, AŞPA üzvü olduğu Azərbaycanın əhalisinin 10 faizinin, 1 milyon insanın Ermənistanın təcavüzü səbəbindən məcburi köçkün vəziyyətinə düşməsinə diqqəti çəkəydi, təcavüzkarın geri oturdulması, ədalətin bərpa edilməsinə azacıq töhfə verəydi. Lakin bunu etmək əvəzinə Azərbaycanı tənqid etmək üçün bəhanələr axtarır, olmayanda isə uydurur.

"Onu da deməliyəm ki, Azərbaycana qarşı təcavüzün qurbanları olan Qarabağ müharibəsi şəhidlərinin ailələri və əlilləri də dövlət tərəfindən mənzillərlə təmin olunur. Digər kateqoriyadan olan əhali də var ki, onlar da dövlətin güzəştli mənzillər proqramından faydalana bilirlər. Bütün bunlar Azərbaycan dövlətinin sosial siyasətinin ayrı-ayrı istiqamətləridir və AŞPA-nın jurnalistlərin mənzillərlə təmin olunmasına siyasi don geydirməyə çalışması, yumşaq desək, təəccüb doğurur. Ən azından, obyektiv yanaşma onu tələb edir ki, jurnalistlərə qayğı göstərməyə çalışan Avropa qurumu Azərbaycan hakimiyyətinin bu addımını təqdir etməli idi. Lakin AŞPA-nın Azərbaycana qarşı məlum mövqeyi əvvəlcədən proqramlaşdığından, onun alqoritmində hər hansı müsbət yanaşmaya yer yoxdur və jurnalistlərin mənzilə olan ehtiyaclarının ödənilməsinə dövlət yardımı mahiyyətcə, sosial ədalət baxımından təqdirəlayiq hadisə olmasına rəğmən, sözügedən qurumun tənqidinə tuş gəlib. Görünür, AŞPA-nın qərar qəbuletmə mexanizmində anti-Azərbaycan alqoritmi var. Belə olmasaydı, qurum Azərbaycanda jurnalistlərə və onların fəaliyyətinə münasibəti qiymətləndirərkən dövlət tərəfindən mövqeyindən asılı olmayaraq, bütün KİV-lərin borclarının dəfələrlə silinməsi ilə əlaqədar qəbul etdiyi qərarlar sözügedən qətnamənin qəbul olunmasına səs verənlərin yadına düşərdi. Lakin AŞPA qərarverənləri bu barədə susurlar, çünki onlara nəyin xatirinə olur-olsun ölkəmizi və hakimiyyəti tənqid etmək üçün "arqument" lazımdır.

Avropanın sözügedən mötəbər qurumunun Azərbaycana qarşı proqramlaşdırılmış növbəti qərəzli mövqeyi, əlbəttə, bizi məyus edir. Lakin hər cür qərəz ilk növbədə, AŞPA-nın nüfuzuna zərbə vurur, onun səviyyəsini aşağı salır, obyektivliyinə şübhə yaradır. Arzu edərdik ki, Azərbaycanın da üzv olduğu beynəlxalq təşkilat daşımalı olduğu missiyanı layaqətlə yerinə yetirsin, konyukturaya uymasın, ədalətsiz və qərəzli olmasın.

Demək istədiyim başqa bir şey də var. AŞPA-nın qərəzli qətnaməsi radikal müxalifəti deyəsən yaman sevindirib. Az qala toy-bayram edirlər. Nədənsə, Azərbaycana qarşı haradasa problem yaradılırsa, ölkəmizə kimlər tərəfindənsə iftiralar uydurulursa, radikallar sevinir. Görünür, vaxtilə bolşeviklərin tətbiq etdiyi taktikanı yaxşı mənimsəyiblər, ona görə də hər vəchlə çalışırlar ki, müxtəlif hesabatlarda Azərbaycan haqqında tənqidlər səsləndirilsin. Ancaq başa düşə bilmirlər ki, bizim üçün ən vacibi xalqın rəyidir. Xalq isə öz dövlətini sevir, Prezident İlham Əliyevə inanır və Onun siyasətini qətiyyətlə dəstəkləyir"-deyə, Əli Əhmədov qeyd edib.

***Ceyhun Rasimoğlu***

## Salome Zurabişvili: Azərbaycan-Gürcüstan münasibətləri regionda sabitlik və inkişaf üçün etibarlı əsasdır



Yanvarın 28-də AŞPA-nın qış sessiyasının plenar iclası Avropa İnsan Hüquqları Məhkəməsinə hakimlərin seçkisi ilə davam edib. Plenar iclasda Polşada demokratik institutların funksiyasına dair hesabat dinlənilib və müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, Polşada demokratik institutların funksiyasına dair hesabatın müzakirələri zamanı deputatlar fikirlərini bildiriblər.

Plenar iclasda çıxış edən Gürcüstan Prezidenti Salome Zurabişvili ölkəsinin Nazirlər Komitəsinə sədrliyi dövründə görüləcək işlərdən söz açıb, bu müddətin uğurlu olacağına əminliyini bildirib. Bildirib ki, insan hüquqlarının və ətraf mühitin qorunması, vətəndaş cəmiyyətinin və vətəndaşların qərar qəbuletmə prosesində iştirakı, uşaqlara uyğun ədliyyə sisteminin yaradılması, təhsil, mədəniyyət və gənclər vasitəsilə demokratiyanın təşviqi Gürcüstanın Nazirlər Komitəsinə sədrliyinin prioritet sahələridir.

Sonra Gürcüstan Prezidenti deputatların suallarını cavablandırıb.

Azərbaycan ilə əməkdaşlıq barədə suala cavab verən Salome Zurabişvili bildirib ki, hər iki ölkənin son dərəcə strateji əhəmiyyətli bir regionda yerləşməsi onların yaxınlığının yalnız özləri üçün deyil, eləcə də Cənubi Qafqaz, Orta Asiya, həmçinin Yaxın və Orta Şərq üçün vacibdir.

Gürcüstanın Azərbaycanla əməkdaşlıq şəraitində həyata keçirdiyi enerji, nəqliyyat layihələri regionda sabitliyin təmin olunmasına, qonşu ölkələr arasında çoxistiqamətli səmərəli münasibətlərin inkişafına təkan verir.

Regionda belə əlaqələrin daha yüksək səviyyəyə çatdırılması üçün böyük potensialın olduğunu qeyd edən Gürcüstan Prezidenti Avropa İttifaqının da bölgəyə və bu münasibətlərə getdikcə daha çox diqqət ayırdığını, Gürcüstan ilə Azərbaycanın həyata keçirdiyi layihələrə maraq göstərən ölkələrin sayının artdığını vurğulayıb.

Qeyd edilib ki, Azərbaycan-Gürcüstan münasibətləri regionda sabitlik və inkişaf üçün etibarlı əsasdır. AŞPA sessiyasının plenar iclasından sonra deputatlar Holokost Qurbanlarının Anım Günü münasibətilə təşkil edilmiş tədbirə qatılıblar.

## Milli Məclisə seçkilərdə 292 namizəd mübarizəni dayandırıb

Azərbaycanda 2020-ci il fevralın 9-na təyin edilmiş parlament seçkilərində mübarizə aparacaq namizədlərin sayı açıqlanıb. Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın dünən keçirilən iclasında bildirib. MSK sədri qeyd edib ki, seçkilərdə 1345 namizəd mübarizə aparacaq. O, həmçinin deyib 292 namizəd mübarizəni dayandırıb.

## Konstantin Kosaçev: Əminəm ki, 9 fevral seçkiləri beynəlxalq norma və qaydalara uyğun keçiriləcək



Əminəm ki, Azərbaycanda 9 fevral parlament seçkiləri beynəlxalq norma və qaydaların tələblərinə uyğun və yüksək səviyyədə keçiriləcək. Bu sözləri secki-2020.az saytına açıqlamasında Rusiya Federasiya Şurasının Xarici İşlər Komitəsinin rəhbəri Konstantin Kosaçev söyləyib.

"Azərbaycan tərəfindən bu seçkilərə həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar, xüsusilə də MDB Parlamentlərarası Assambleyası vasitəsilə müşahidəçilər göndərməklə bağlı dəvət aldıq. Hazırda seçkilərə hazırlıq prosesi gedir. Hər hansı bir narahatlıq müşahidə etmirik. Fevralın 9-da keçiriləcək parlament seçkilərində dost Azərbaycan xalqına uğurlar arzulayırıq", - deyə K.Kosaçev bildirib.

## Bu gün Dolların qiyməti neçə olacaq?



Yanvarın 30-na manatın məzənnəsi açıqlanıb. Mərkəzi Bankdan SİA-ya verilən məlumata görə, 30.01.2020-ci il tarixindən etibarən rəsmi məzənnə 1 ABŞ dollarına nisbətdə 1,7000 manat səviyyəsində müəyyən olunub. Qeyd edək ki, 2019-cu il yanvarın 29-da da USD/AZN rəsmi məzənnəsi 1,7000 manat təşkil edib.



# Koronavirus kabusu və Çin hədəfdə

Son zamanlar Çində qeydə alınan və artıq yaxın ətrafa, qonşu ölkələrə, hətta Avropaya belə yayıldığı qeyd olunan koronavirus barədə xəbərlər gündəmi zəbt edib. Hər gün bu virusa yoluxanların və həmin xəstəlik səbəbindən ölənlərin sayının artdığı barədə məlumatlar da hər an yenilənir. Çində qeydə alınan və artıq yüzdən çox insanın ölümünə səbəb olan virus və onun acı nəticələri qlobal miqyasda bir qorxu yaradıb. Artıq həyəcan siqnalı ilə bu özünü göstərir və bir çox ölkələrin Çinlə əlaqələrinin məhdudlaşdırılması bunu təsdiq edir.

Nədənsə, heç də Çinin özündə bu virusa yoluxma digər yerlərdəki qədər vahimə ilə qarşılanmır. Doğrudur, Çində bu virusla mübarizə tədbirləri görülür, tibbi təlimatlar verilir, hətta virusun qarşısının alınması istiqamətində elmi tədqiqatlar da aparılır və bu kifayət qədər diqqəti cəlb edir. Virusun daşıyıcısı, onun dəniz məhsulları olduğu barədə gəlinən qənaətlər də bu tədqiqatların nəticəsi hesab oluna bilər. Əslində, belə bir nəticə heç də qənaətbəxş hesab olunmur və tədqiqatlar hələ də davam edir. Bir sözlə, yeni növ virusla, koronavirusla mübarizə tədbirləri davam etməkdədir.

Məsələ burasındadır ki, dünyanın digər ölkələrində, hətta Çinə qonşu olmayan dövlətlərdə daha böyük xofun olduğu diqqətdən kənarda qalmır. Bəzən elə gəlir ki, düşünülmüş şəkildə dünyada bir koronavirus kabusu obrazı yaradılıb. Sanki bilərəkdən qorxu yaratmaqda hansısa qüvvələr, kimlərsə maraqlıdır və bu qorxunun daha da artması hansısa dəyirmana su tökür. Nəyə görəsə, dünyanın başqa yerlərində yayılan və koronavirusdan daha dəhşətli xəstəliklər dünya ictimaiyyətinə bu qədər vahiməli, bu qədər qorxunc təqdim edilməyib. Nədənsə, daha dəhşətli viruslar barədə belə mütəmadi məlumatlar verilməyib və hətta hələ də bəzilərinin olması belə gizlədilir. Amma Çindən yayılmağa başlayan bu virus barədə informasiyalar ən adi xırdalıqlarına qədər dünya ictimaiyyətinə çatdırılır.

Bəlkə də insanların hələ böyük əksəriyyəti keçən ilin oktyabrından bəri ABŞ-da yayılan və ən azı, 15 milyon insana təsir edən bir qrip epidemiyası barədə tamamilə məlumatsızdır. Hətta bu qrip səbəbindən, 8200 nəfərin öldüyü barədə insanların tam məlumatlı olacağına da inanmaq olmur. Halbuki bu, ABŞ Xəstəliklərə Nəzarət Mərkəzləri tərəfindən yayımlanan rəsmi məlumatlardır. Yeri gəlmişkən, son günlər xəstəlik bir az da artıb. Amma yenə də dünya ictimaiyyəti bu barədə məlumatsızdır. Yaxud da, Ulduz Müharibələrindəki kimi Amerikada kimlərsə respiratorlarla gəzmirlər və Çində olduğu kimi, yoluxma qorxusu ilə yaşamırlar.

Son zamanlar koronavirusun mənşəyinin dəniz məhsulları olduğu barədə məlumatlara də rast gəlinir. Daha doğrusu, dəqiq şəkildə bildirilməsə də, hansısa dəniz məhsulunun bu virus daşıyıcısı olduğu iddia edilir və guya belə hesab olunur ki, bu qorxunc xəstəlik dəniz məhsullarından insana keçib. Heç şübhəsiz, dəniz məhsullarından dünyanın hər yerində, demək olar ki, hər bir insan istifadə edir. İnsanların qidasının bir hissəsini də dəniz məhsulları təşkil edir. Maraqlıdır, görəsən, dəniz məhsullarından istifadə niyə, məhz Çində xəstəliyə səbəb oldu? Yoxsa virus yalnız dənizin, okeanın Çin sahillərindəki canlılarına aiddir? Yaxud virusa yalnız çinlilər yoluxa bilirlər? Bəlkə koronavirus özü seçim edib və Çini seçib? Bu suallar, təbii ki, düşündürür və yeni koronavirus məsələsinin kökündə Çinlə əlaqədar, nələrinsə, dayandığı məntiqi şəkildə özünü təsdiq edir.



Çinin kimlərinsə hədəfinə çevrildiyi aydın şəkildə görünür.

Təbii ki, dəniz məhsullarının virusun mənşəyi olması barədə mülahizələr absurd səsləndi. Çünki əgər dəniz məhsulları virusa səbəb olsaydı, dünyanın əksər ölkələrində də yeni koronavirus peyda olardı və belə olmadığı təqdirdə bunun əsassız olduğu ortaya çıxır. Belə əsassız fikirlər, iddialar dərhal yığışdırıldı və görünür, daha inandırıcı, daha münasib iddiaların dövriyyəyə buraxılmasına ehtiyac duyuldu.

Məsələ burasındadır ki, xəstəlik xofunun yaradılmasının, bütün tədqiqatların, koronavirusun araşdırılmasının belə kökündə bir məsələ, Çinin hədəf olaraq, seçilməsi dayandığı gün kimi aydın olur. Aydın olur ki, hansısa qüvvələr, ola bilsin qurumlar, hətta dövlətlər belə Çin dövlətini hər hansı yolla rəqabət müstəvisindən uzaqlaşdırmaqda israrlıdır. Çox güman ki, bu, Çinlə iqtisadi, ticari aspektdə rəqabətə davam gətirə bilməyənlərdir. Çinin iqtisadi inkişafının, irəliləyişinin dünya ölkələrinin hər birindən yüksək olduğu artıq günün reallığına çevrilib. Bunu ən fövqəldövlət hesab olunanlar, ABŞ, Rusiya və digər Avropa ölkələri də çox yaxşı başa düşürdü. Başa düşürdü ki, Avropanın bir sıra kapitalist ölkələrinin ixtisaslaşmış sahələri belə Çin istehsalından geri qalır. Avropada tanınmış brendlər belə Çində istehsal olunanlardan reallaşdırılma, satış baxımından geridə idi. Ən maraqlı məqam ondan ibarətdir ki, Avropa ölkələrinə məxsus bir sıra məhsulların istehsalı, artıq Çində həyata keçirilirdi. Ucuz işçi qüvvəsinin olması, sahibkarlıq mühiti üçün daha əlverişli, daha az məsrəf tələb edən şəraitin mövcudluğu səbəbindən, Avropa ölkələrinin bir çoxuna məxsus markaların istehsal müəssisələri belə Çində qurulub, istehsalı da, məhz həmin ölkədə reallaşdırılırdı. Bir sıra Avropa məhsullarının belə, məhz Avropada deyil, artıq Çində istehsal edilməsi özü təsdiq edir ki, Çin onların hər birini üstələyir. Hətta dünyada müşahidə olunan iqtisadi böhranın fonunda Çin özünün çiçəklənmə dövrünü yaşayır və inkişafını davam etdirirdi. Görünən odur ki, Çinin belə inkişaf dinamikası həzm edilmədi və koronavirus adı altında bu yüksək inkişaf mərhələsində olan dövlət hədəfə alındı.

Çində, bunun adı istər koronavirus olsun, ya nə isə, hansısa virusun, yaxud xəstəlik törədicisinin, ya xəstəliyin olmamasını, əsla söyləmək olmaz. Çünki virusun və törətdiyi xəstəliyin fəsadlarının, acı nəticələrinin konkret statistik rəqəmlərdə təzahürü artıq sirr də deyil. Yoluxma, ölüm halları barədə məlumatlar, onsuz da, yayılmaqdadır və indi dünyada bu barədə kiminsə bilmədiyini söyləməyə belə cəsarət edən tapılmaz. Artıq hər kəsin istər öz sağlamlığı, istərsə də cəmiyyət üçün təhlükəli olmaması üçün diqqətli olması, maksimum səviyyədə qorunması ən aktual, ən vacib məsələdir.

Diqqəti cəlb etmək lazım olan məqam, əlbəttə ki, yeni koronavirusa qarşı görülən tədbirlərin şişirdilməməsi deyil, cəmiyyətin, insanların xəstəlikdən qorunması və təhlükənin aradan qaldırılmasıdır. Bundan sui-istifadə halları da yolverilməzdir və dünyanın istənilən ölkəsində hansısa qorxu, yaxud vahimə yaratmaq, eləcə də, hansısa çirkin niyyət üçün yararlanmağa qarşı da tədbirlər görülməlidir. Bu barədə insanlara da məlumatlar verilməli, istər xəstəlikdən mühafizə olunmaq, qorunmaq, istərsə də hansısa niyyətlərə alət olmamaları barədə cəmiyyət maarifləndirilməlidir.

Baxmayaraq ki, bu, Çin əleyhinə, bu dövlətə hər hansı təsirlər üçün istifadə edilir, sözügedən xəstəlik, həqiqətən, təhlükəli görünür və qabaqlayıcı tədbirlər görülməsinə ehtiyac da qaçılmazdır. Kütləvi çaxnaşma və eyni zamanda, Çin əleyhinə olan qorxuları artırmaq üçün istifadə olunduğuna baxmayaraq, ehtiyat tədbirlərinin görülməsi də aktual məsələdir.

Ölkəmizdə də bu istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsi, yeni haqqında danışılan xəstəliyin nəzarətə götürülməsi, yoxlamalar və ölkə başçısının şəxsən tapşırığı ilə məsələnin diqqət mərkəzində saxlanılması, həqiqətən də, təqdirəlayiqdir. Əslində, bu, vətəndaşların sağlamlığının, həyatının qorunması, nəticə etibarı ilə vətəndaşa və cəmiyyətimizə olan qayğı deməkdir.

***İnam HACIYEV***

## Seçki məntəqələrində fiziki məhdudiyyətli seçicilər üçün xüsusi panduslar quraşdırılacaq

***2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərlə əlaqədar fiziki məhdudiyyəti olan vətəndaşların səs vermələri üçün lazımi şərait yaradılır. Bunu Secki-2020.az saytına açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) katibi Mikayıl Rəhimov deyib.***



Onun sözlərinə görə, ehtiyacı olan bütün məntəqələr xüsusi panduslarla təmin edilir. "Məntəqələrdə xüsusi panduslar quraşdırılır ki, fiziki məhdudiyyəti olan seçicilər məntəqəyə sərbəst şəkildə daxil olaraq səsvermə hüququndan istifadə edə bilsinlər. Bütün bunlar diqqət mərkəzindədir və heç kəs diqqətdən kənarda qalmayacaq. Fiziki məhdudiyyətli seçicilərin də səsvermə hüquqları var, onların bu hüquqları tanınır",- deyə Mikayıl Rəhimov vurğulayıb.

## Fransalı yazıçı: Azərbaycan xalqının qəhrəmanlıq salnaməsindən bütün dünya xəbərdar olmalıdır



Azadlıq qanla qazanılır. Bütün xalqların tarixində azadlıq məhz belə qazanılıb. Azərbaycan xalqı da azadlığını öz qanı bahasına əldə edib. 20 Yanvar faciəsi zamanı günahsız insanların qanı axıdıldı və həmin gün ölkə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazıldı. Bu fikirləri Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası çərçivəsində 20 Yanvar faciəsinin 30-cu ildönümü münasibətilə təşkil edilmiş konfransın iştirakçısı, fransalı tarixçi və yazıçı Jerar Kardon AZƏRTAC-a müsahibəsində deyib.

O bildirib ki, günahsız insanların qanı axıdılan 20 Yanvar hadisələrini bütün dünyaya çatdırmaq lazımdır. "Mən yazıçıyam və hesab edirəm ki, faciədən bəhs edən kitablar yazılmalı, müxtəlif dillərə tərcümə edilməlidir. Sənədli və bədii filmlər çəkilməlidir. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsindən bütün dünya xəbərdar olmalıdır", - deyə J.Kardon diqqətə çatdırıb.

# “YAP xalqın böyük etimadı ilə parlament seçkilərində növbəti dəfə inamlı qələbə qazanacaq”



SİA 19 saylı Nərimanov birinci seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Hikmət Babaoğlunun müsahibəsini təqdim edir:

***- Hikmət müəllim, fevralın 9-da Azərbaycanda parlament seçkiləri keçiriləcək. Yeni Azərbaycan Partiyası tərəfindən sizin də deputatlığa namizədliyiniz irəli sürülüb. Ölkəmizdə seçkiqabağı mühiti necə dəyərləndirirsiniz?***

- Hər bir demokratik cəmiyyətdə seçkilərin keçirilməsi növbəti demokratiya yarışıdır. Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər keçiriləcək və üzv olduğum ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası bu seçkilərdə iştirak edir. Seçkilərdə YAP-ın müəyyənləşdirdiyi namizədlər siyahısında adımın olması mənim üçün çox böyük qürur və şərəfdir. Mən buna görə partiyamızın rəhbərliyinə, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ürəkdən təşəkkürümü bildirirəm.

Yeni Azərbaycan Partiyası özünün ən fəal üzvləri və ali qanunverici orqanda yeni keyfiyyət dəyişiklikləri yarada biləcək namizədlərlə seçkilərə gedir. Ümumiyyətlə, YAP ötən müddət ərzində ölkəmizdə keçirilən bütün seçkilərdə qalib olmağı bacarıb. Bu, ondan xəbər verir ki, iqtidar partiyası olan YAP-ın fəaliyyəti və bütövlükdə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi siyasət xalqımız tərəfindən dəstəklənir.

Hazırda çox mürəkkəb bir tarixi mərhələdən keçməkdəyik və bu mərhələdə müsəlman Şərqində çox ciddi problematik hadisələr baş verməkdədir. Sabitlik pozulub, milli dövlətlər dağılmaqdadır. Yaxın Şərqdə olan dövlətlərin hamısı, demək olar ki, bu və ya digər formada müharibələrə cəlb edilib. Amma sabitlik adasını xatırladan Azərbaycan inkişaf edir, ölkəmizin iqtisadiyyatı böyüyür, irihəcmli sosial layihələr həyata keçirilir, qeyri-neft sektorunun inkişafı ilə bağlı xüsusi tədbirlər görülür.

Azərbaycanın fəal təşəbbüsü və birbaşa iştirakçılığı ilə strateji əhəmiyyətli meqalayihələr reallaşdırılıb, ölkəmiz Avrasiyanın yeni nəqliyyat-kommunikasiya və enerji xəritəsini yaradıb. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması ilə əsası qoyulan praqmatik enerji strategiyasının uğurla icra olunması nəticəsində həm ölkəmizdə sosial-iqtisadi inkişaf, yüksəliş təmin olunub, həm də mühüm beynəlxalq əməkdaşlıq platformaları yaradılıb. “Əsrin müqaviləsi” həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində çox mühüm rola malikdir. 1994-cü ildən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanması bu baxımdan xüsusi vurğulanmalıdır. Daha dəqiq desək, bu gün yeni kontraktlar imzalanır, Azərbaycan beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin, 2007-ci ildə isə daha bir nəql marşrutu-Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi tarixi nailiyyətdir. Bunlarla yanaşı, Azərbaycanın yeni qazötürücü xəttin-Cənub Qaz Dəhlizinin yaradılması təşəbbüsü ilə çıxış etməsi, TANAP qaz kəmərinin istifadəyə verilməsi, TAP seqmentinin icrası istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyətə malikdir. 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması da ayrıca qeyd edilməlidir. Bu Sazişin imzalanması ilə böyük ehtiyatlara malik “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənilməsində yeni mərhələ başlayıb. Digər tərəfdən, Azərbaycanda yaradılan müasir infrastruktur ölkəmizi Avrasiyada strateji nəqliyyat qovşağına çevirib. Son 16 ildə ölkəmizin Avropa ilə Asiya arasında mühüm tranzit məkana çevrilməsini təmin etmək məqsədilə böyük iş həcmi yerinə yetirilib, Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də digər bir sıra önəmli layihələr reallaşdırılıb. Bütövlükdə, son illər ərzində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində atılmış addımlar artıq öz səmərəsini verir.

Eyni zamanda, ölkəmizdə elmin, təhsilin, səhiyyənin inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir, respublikamızda bu ildən etibarən icbari tibbi sığorta tətbiq olunur. Bunlarla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli maraqlara əsaslanan, çoxvektorlu və praqmatik xarici siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənir, dostluq və strateji tərəfdaşlıq münasibətləri möhkəmlənir.

2015-ci ildən sonra dünyada bəzi siyasi qərarlar nəticəsində iqtisadi krizis yaşansa da, Azərbaycan qəbul etdiyi operativ qərarlarla böhranlı prosesi də idarə etməyi bacardı. Ölkəmizdə bütün sahələrdə çoxşaxəli, genişmiqyaslı, sistemli və kompleks xarakterli islahatlar həyata keçirilməyə başlandı. Əlbəttə ki, bütün bu islahatların müəllifi Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevdir. Ona görə də bundan sonrakı mərhələdə də Azərbaycanı gələcəyə aparacaq yeganə siyasi partiya Yeni Azərbaycan Partiyasıdır, yeganə lider Prezident İlham Əliyevdir.

Yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunları ilə bağlı müşavirə keçirildi və bəlli oldu ki, ötən il çox böyük nailiyyətlərlə yadda qalıb. Cənab Prezident ötən ili qısaca xarakterizə edərkən qeyd etdi ki, 2019-cu il dərin islahatlar ili oldu. 2019-cu ildə də Azərbaycan xalqının rifahının daha da yaxşılaşdırılmasına xidmət edən çoxsaylı addımlar atılıb, mühüm strateji qərarlar qəbul olunub. Ona görə də düşünürəm ki, bu vaxta qədər əldə edilən nailiyyətlər, həyata keçirilən islahatlar Azərbaycanın bundan sonrakı mərhələdə inkişafını təmin etmək üçün çox gözəl şərtlər yaradıb.

***- Seçki kampaniyasında Yeni Azərbaycan Partiyası ilə yanaşı, digər bir sıra partiyalar da iştirak edirlər. Siyasi şərhçilər seçki kampaniyasının favoritinin YAP olduğunu əminliklə ifadə edirlər. Bu qənaəti formalaşdıran amillər barədə nə deyə bilərsiniz?***

- Qeyd etdiyimiz kimi, xalqın dəstəyinə arxalanan Yeni Azərbaycan Partiyası qatıldığı bütün seçkilərdə inamlı qələbə qazanmaqla öz gücünü və nüfuzunu dəfələrlə nümayiş etdirib. Təsadüfi deyil ki, YAP qələbələr partiyası kimi səciyyələndirilir və bu seçkilərdə də favorit olaraq göstərilir.

Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan bu günə qədər göstərdiyi fəaliyyət sayəsində ümumxalq partiyası adını qazanmağı bacarmışdır. Biz bilirik ki, hər hansı partiyanın ümumxalq partiyası kimi səciyyələndirilməsinin özünəməxsus şərtləri var. Bu şərtlər yerinə yetirilməyənə qədər heç bir siyasi təşkilat haqqında bu sözü demək mümkün deyil. YAP-ın ümumxalq partiyasına çevrilməsi, heç şübhəsiz ki, ilk növbədə onun qurucusu, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki partiyamız yaranan zaman onun Proqram və Nizamnaməsini Ulu Öndər Heydər Əliyev şəxsən yazmışdı. Əslində, bu Proqram və Nizamnamə Azərbaycan xalqının siyasi, iqtisadi maraqlarını, mədəni, milli-mənəvi dəyərlərini, bütövlükdə dövlətçilik maraqlarını qorumağı özündə ehtiva edən sənədlərdir. Məhz bu sənədlərdən irəli gələn tələblərin yerinə yetirilməsi YAP-ı ümumxalq partiyası kimi səciyyələndirməyə gətirib çıxardı.

YAP elə bir siyasi təşkilatdır ki, burada Azərbaycan cəmiyyətinin bütün stratalarını təmsil edən üzvləri tapmaq olar. Başqa sözlə, Azərbaycanın sosial iyerarxiyasının bütün təbəqələrinin nümayəndələrini YAP-da görmək mümkündür. Hesab edirəm ki, bu, partologiya tarixində mühüm bir hadisədir. Ən əsası, YAP sıralarında birləşən insanlar milli dəyərləri, azərbaycançılıq ideologiyasının əsas prinsiplərini mənimsəmiş insanlardır. Vəzifəsindən, peşəsindən, sosial statusundan asılı olmayaraq, YAP-ın Proqram və Nizamnaməsində əks olunan müddəaları, milli maraqlarımızı qorumağa hazırdırlar. Məhz buna görə YAP güclü partiya, aparıcı siyasi qüvvədir, Azərbaycanda ona rəqib olacaq partiya yoxdur.

2020-ci ilin parlament seçkiləri də Azərbaycanın siyasi sistemindəki bu reallıq fonunda baş tutur.

YAP seçkilərdə 123 seçki dairəsində namizədi ilə mübarizə aparır. Bu namizədlərin tərkibi də YAP-ın bir partiya kimi zəngin daxili strukturunun göstəricisidir. Yəni burada ilk növbədə ziyalılar, qadınlar, gənclər və sosial mənsubiyyət etibarı ilə bütün kateqoriyalara mənsub olan insanlar namizəd kimi öz əksini tapıb. Bunun özü YAP-ı cəlbedici etməklə bərabər, seçkidə uğur qazanmasına əsas yaradan səbəblərdən biridir. Amma bütün bunlarla bərabər, YAP-ın qələbə qazanmasını şərtləndirən ən birinci amil onun Sədrinin, Prezidentimiz cənab İlham Əliyevin fəaliyyətidir. Cənab İlham Əliyev bütün fəaliyyəti dövründə Azərbaycanın milli və dövlət maraqlarını qorumaqla yanaşı, ölkənin ən ciddi problemlərinin həlli üçün bütün resursları səfərbər etməyi bacaran uğurlu bir lider kimi tanınıb. O, ən mürəkkəb vəziyyətlərdə belə bir neçə siyasi gedişi öncədən hesablayan unikal siyasətçi keyfiyyətlərinə sahib olan şəxsiyyətdir.

***- Yeni Azərbaycan Partiyası 19 saylı Nərimanov birinci seçki dairəsindən növbəti dəfə sizin deputatlığa namizədliyinizi irəli sürüb. Millət vəkili seçiləcəyiniz təqdirdə, müasir çağırışları, islahatlar kursunu nəzərə alaraq parlamentdə hansı məsələlərlə bağlı çıxış etməyi nəzərdə tutursunuz?***

- Bilirsiniz ki, mənim namizədliyim YAP tərəfindən irəli sürülüb. Buna görə də əgər millət vəkili seçilərəmsə, ilk gündən bütün fəaliyyətim partiyamızın tapşırıq və tövsiyələri, hədəflədiyi istiqamətlər üzrə olacaq. Əlbəttə ki, seçicilərimizin arzuları, istəkləri, müraciətləri də daima diqqət mərkəzində olacaq. Millət vəkili seçiləcəyim təqdirdə, ötən beş ildə olduğu kimi, yenə də onların fikirlərinin parlamentində səsləndirilməsi, problemlərinin həll olunması istiqamətində fəaliyyət göstərəcəyəm.

Hesab edirəm ki, növbəti mərhələdə ali qanunverici orqan olaraq Milli Məclis müasir dövrün çağırışlarına, Prezident İlham Əliyevin islahatlar kursuna uyğun fəaliyyət göstərəcək. YAP-ın nümayəndəsi kimi, mən də bu istiqamətdə səylərimi əsirgəməyəcəm.

***- Təbliğat kampaniyası çərçivəsində seçicilərinizlə görüşləriniz necə davam edir?***

- Mən 2015-ci ildə 19 saylı Nərimanov birinci seçki dairəsindən deputat seçilmişəm. Bu müddətdə seçicilərimlə sıx ünsiyyət qura bilmişəm, onların problemlərini ictimailəşdirməyi, onları maraqlandıran məsələləri Milli Məclisin tribunasından səsləndirməyi bacarmışam. Yəni mümkün qədər onların yanında olmağa çalışmışam. Ona görə də düşünürəm ki, YAP-ın namizədi kimi növbəti dəfə seçkilərə qatılmaqla seçicilərin yenidən etimadını qazana biləcəyəm.

Bəzən seçicilər qanunverici orqanın nümayəndəsi ilə icra orqanlarının nümayəndələrini dəyişik salırlar və hesab edirlər ki, qanunverici orqanda təmsil olunan şəxs icraedici orqanın da səlahiyyətlərini həyata keçirə bilər. Azərbaycanın oturuşmuş hüquqi sistemi, çox optimal idarəetmə məktəbi var və hesab edirəm ki, vətəndaşların problemlərinin böyük əksəriyyəti həll olunur. Millət vəkilləri seçicilərinin probleminin həlli ilə bağlı müvafiq icra qurumlarına müraciət edirlər. Bu baxımdan, seçicilərim əmin olsunlar ki, mənə etimad göstərsələr, qanunverici orqanın təmsilçisi kimi onları layiqincə təmsil edəcəyəm.

Ümumiyyətlə, hansı seçki dairəsində olursa olsun, onların arzularını, istəklərini həyata keçirəcək potensiala malik olan şəxslər məhz YAP-ın namizədləridir. Ona görə ki, bu namizədlərin arxasında ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası dayanıb. YAP siyasi sistemimizin lokomotiv gücü, sütunu olaraq bu vaxta qədər çox böyük işlər görüb və bundan sonra da Azərbaycanın inkişafına öz müstəsna töhfəsini verəcək. İnanıram ki, məhz bu inkişafın davamlı olması üçün hörmətli seçicilərimiz YAP-ın namizədlərinə səs verəcəklər. Mən bir daha seçiciləri fevralın 9-da fəal olmağa, daha güclü Azərbaycan naminə YAP-ın nümayəndələrinə səs verməyə çağırıram!

# Sevinc Fətəliyeva: “Medianın cəmiyyətin və dövlətin inkişafında rolu böyükdür”

***Avropa Şurası Parlament Assambleyasının qış sessiyası çərçivəsində “Media azadlığında təhdidlər və Avropada jurnalistlərin təhlükəsizliyi” mövzusunda keçirilən müzakirələrdə Azərbaycanın qurumdakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva çıxış edib.***



S.Fətəliyeva bildirib ki, bu gün medianın rolu və əhəmiyyəti çox böyükdür. Onun sözlərinə görə, media səhvləri tənqid edən və qanun pozuntularının qarşısını alan bir resurs olmaqla yanaşı, eyni zamanda, fikirlərin inkişafına, cəmiyyətin inkişafına da töhfə verir.

“Tarix boyu bəşəriyyət sərbəst bir müzakirənin olduğu, fikirlərin yoxlandığı və mübahisə edildiyi zaman ən sürətli tərəqqiyə nail olmuşdur. Nelson Mandelanın sözlərini yada salaq: “Media, özümüzü başqalarının tanıdığı kimi, görə biləcəyimiz bir aynadır: bütün qüsurlarımız, çatışmazlıqlarımız və digərləri ilə ... Bu cür tənqid inkişafımıza töhfə verməlidir. Necə hərəkətlərimizdən və hərəkətsizliyimizdən insanların bizdən gözlədiklərinə uyğun olmayan məqamlara diqqət çəkir”. Müasir jurnalistika sosial şəbəkələr, sosial media ilə sıx bağlıdır. Hər bir vətəndaş informasiya daşıyıcısı olur. Bloggerlərin sayının artmasına səbəb olur. Onların fəaliyyəti isə, öz növbəsində, cəmiyyətin mövqeyinin formalaşmasına təsir edir. Bunu da, unutmamalıyıq ki, hər bir vətəndaş hansı sahədə fəaliyyət göstərməyindən asılı olmayaraq, qanun qarşısında eyni məsuliyyəti daşıyır. Söz azadlığına sığınaraq, vətəndaşlar, jurnalistlər və ya bloggerlər qanuna zidd hərəkət və fəaliyyət göstərə bilməz! Medianın cəmiyyətin və dövlətin inkişafında rolu da böyükdür. Bu gün Azərbaycanda sürətli islahatlar aparılır. Hər bir sahədə şəffaflığın təmin edilməsi üçün, ölkə başçısı daima həm media nümayəndələrini, həm də hər bir vətəndaşı ictimai nəzarətin həyata keçirilməsində fəal iştirak etməyə çağırır” deyə S.Fətəliyeva vurğulayıb.

***ZÜMRÜD***

# Çinin “Huawei” şirkəti AZƏRTAC-la əməkdaşlığı genişləndirməkdə maraqlıdır



AZƏRTAC və Çinin informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan “Huawei” əlaqələri genişləndirəcək. Əməkdaşlığın perspektivləri AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə “Huawei Azərbaycan” şirkətinin icraçı direktorunun müavini Yanq Zilonq və İdarəetmə Departamentinin satış meneceri Vu Xinin görüşündə müzakirə olunub.

Azərbaycan və Çinin dost ölkələr olduğunu qeyd edən Aslan Aslanov dövlətimizin Çin ilə əməkdaşlığın daim inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini bildirib. Xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin aprelində Pekində “Huawei” kompaniyasının sədri Lian Xuanı qəbul edərkən İKT sahəsində şirkətlə əməkdaşlığın perspektivlərindən danışıb. Bu, dövlətimizin başçısının şirkətin Azərbaycandakı fəaliyyətinə verdiyi önəmin bariz göstəricisidir.

“AZƏRTAC ilə “Huawei” arasında əməkdaşlığın təməli bir neçə il əvvəl qoyulub. Agentliyimiz şirkətin ölkəmizdə həyata keçirdiyi bir sıra layihələrə informasiya dəstəyi verib. Əminəm ki, əlaqələrimiz daha da genişlənəcək və hər iki tərəf üçün faydalı olacaq”, - deyə sədr vurğulayıb.

Görüşdə AZƏRTAC və Çinin Sinxua agentliyi arasında sıx tərəfdaşlıq əlaqələrindən söhbət açılıb. Bildirilib ki, agentlik, eyni zamanda, yüz milyondan çox oxucu auditoriyası olan China Daily qəzeti ilə də mütəmadi informasiya mübadiləsi aparır. Azərbaycanda fəaliyyət göstərən Konfutsi İnstitutu AZƏRTAC-ın əməkdaşları üçün Çin dili kursları təşkil edib. Agentlik beş ildən çoxdur ki, Çin dilində informasiya yayır.

Şirkətin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini qeyd edən Yanq Zilonq deyib: “Məqsədimiz Azərbaycanda yeni texnologiyaların tətbiqinə, innovativ iqtisadiyyata keçid prosesinə töhfə verməkdir”.

AZƏRTAC-ın informasiya dəstəyi ilə bir sıra layihələrin həyata keçirildiyini xatırladan Yanq Zilonq təmsil etdiyi şirkətin agentliklə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu söyləyib. Söhbət zamanı yeni texnologiyaların mediaya təsirləri, AZƏRTAC və “Huawei” arasında əməkdaşlığın perspektiv istiqamətləri, əlaqələri yeni müstəviyə çıxarmaq üçün müqavilə imzalanmasının mümkünlüyü barədə fikir mübadiləsi aparılıb.

## Milli Məclisə seçkiləri izləmək üçün qeydiyyatdan keçən müşahidəçilərin sayı açıqlanıb



Azərbaycanda parlament seçkilərini izləmək üçün qeydiyyatdan keçən müşahidəçilərin sayı açıqlanıb. Secki-2020.az saytı xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın bu gün keçirilən iclasında məlumat verib. MSK sədri qeyd edib ki, ümumilikdə, 58 min 344 yerli və 429 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.

# Könüllülük kütləvi sosial fəaliyyətə çevrilib



“Könüllülük vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir”. Bu fikirləri “Səs” qəzetinə açıqlamasında Sumqayıt Dövlət Universitetinin 1-ci kurs tələbəsi, gənc könüllülərdən olan Şövkət Abadova bildirib. Onun sözlərinə görə, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır: “Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra ölkəmizin güclü bir dövlətə çevrilməsində, insanların rifahının getdikcə yaxşılaşmasında könüllülər də mühüm rol oynayırlar. Xüsusilə, son illərdə könüllülük hərəkatı respublikamızın davamlı inkişafının təmin olunmasında daha çox diqqət çəkir. Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi xeyirə əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial bir fəaliyyət istiqaməti hesab olunur”.

Ş.Abadova XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək, BMT könüllüləri tərəfindən koordinasiya olunmağa başladığını diqqətə çəkib. Beləliklə, könüllülük dünyada kütləvi bir sosial fəaliyyətə çevrilib. Müasir Azərbaycanda könüllülük sahəsində real inkişaf Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başladığını bildirən gənc könüllü könüllülük hərəkatının nəzərəçarpacaq yüksəlişinin, məhz Ümummilli Liderimizin adı ilə bağlı olduğunu diqqətə çəkib: “Belə ki, Ulu Öndər Heydər Əliyevin idarəçiliyinin ilk illərindən başlayaraq, hərtərəfli və davamlı inkişaf məqsədilə dövlət və özəl sektorlar və vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanıldı. Bu prosesə insanları könüllü şəkildə cəlb etməyə, onların sahə təcrübəsindən yararlanmağa mühüm önəm verildi”.

Beləliklə, 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başladı. 1998-2000-ci illərdə bu proqramın nəticəsi olaraq, ölkədə güclü könüllü komandası yaradıldı və könüllülük prinsiplərinin geniş auditoriyaya təbliğinə start verildi. XXI əsrin əvvəllərindən ölkəmizin yüksək neft gəlirləri ilə müşayiət olunan yeni bir dövrü başladı. Ş.Abadova birdirib ki, bu dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi idi: “Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac vardı və əlbəttə, bu sahədə könüllülüyün mühüm önəm daşıması danılmaz idi. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ-hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. 30 dekabr 2019-cu il tarixində Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər İli” elan edilməsi haqqında Sərəncamı ölkə rəhbərliyinin könüllülük fəaliyyətinə necə yüksək dəyərləndirdiyinin təcəssümüdür”.

Son illər ölkəmizdə həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən, idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək və həmrəylik kimi dəyərlər aşılamış olur.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Serj Sarkisyanın cinayət işi məhkəməyə göndərilib

***Ermənistanın sabiq prezidenti Serj Sarkisyan haqqında cinayət işi məhkəməyə göndərilib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Ermənistan baş prokurorluğunun mətbuat katibliyinin məlumatına görə, prokuror iddianaməni təsdiqləyib.***



Xatırladaq ki, Serj Sarkisyan bir milyon dollardan çox dövlət vəsaitinin oğurlanmasının təşkilində ittiham olunur. Onunla birlikdə sabiq kənd təsərrüfatı nazirinin müavini Samvel Qalstyan, nazirliyin bitkiçilik idarəsinin rəisi Gevorq Arutyunyan və “Fleş” şirkətinin sahibi Barseq Beqlaryana da ittiham irəli sürülüb. Ötən il dekabrın ortalarında Sarkisyanın əmlakı üzərinə həbs qoyulub. İstintaqın versiyasına görə, sui-istifadə kəndlilərə dizel yanacağının münasib qiymətlərlə satılması üzrə hökumət proqramı çərçivəsində baş verib. Cinayət işinin materiallarına əsasən, Sarkisyan tabeçiliyindəki şəxslərə dizel yanacağının tədarükçüsü qismində “Fleş” kompaniyasını seçməyi tapşırıb. Halbuki digər şirkət - “Masxur” kompaniyası daha ucuz qiymət təklif etmişdi.

Müstəntiqlər hesab edirlər ki, sabiq prezident tamah məqsədilə sövdələşmədən özü üçün maksimum mənfəət götürmək niyyəti güdüb.

# 2020-ci ilin ilk aylarında dünyanı sarsıdan fəlakətlər

*2020-ci ilin yanvar ayında zəlzələlərdən yanğınlara, virus epidemiyasından təyyarə qəzalarına bütün dünyanı maraqlandıran bir çox hadisələr yaşanıb. SİA 2020-ci ilin yanvar ayının ən çox əks-səda doğuran hadisələrini tərtib edib*






ARAŞDIRMA

### ABŞ iranlı general Qasım Süleymanini öldürüb

ABŞ-ın iranlı general Qasım Süleymanini 2020-ci ilin ilk günlərində raket hücumu ilə öldürməsi dünyanı sarsıdan xəbərlər sırasında olub. Belə ki, İran İnqilab Keşikçiləri Korpusuna bağlı Qüds Qüvvələrinin komandanı Süleymani İraqın paytaxtı Bağdad yaxınlığındakı hava limanına ABŞ-ın pilotsuz uçan aparatla etdiyi hücum zamanı öldürülüb. Bu hadisədən sonra İranda üç günlük matəm elan edilib. Üstəlik Süleymaninin cənazəsində yaşanan izdihamda 50-dən çox insan həyatını itirib.

### İran ABŞ-ın İraqdakı 2 bazasını vurub

İranda çox böyük nüfuza malik olan Süleymaninin öldürülməsindən sonra İranın ABŞ-a sərt reaksiyası gecikməyib. Tehran rəhbərliyi Süleymaninin qətlinə görə qisas almaq üçün ABŞ-ın Ərbil və İraqdakı Ayn əl-Əsəd aviabazalarını vurub. Tehran rəhbərliyi hücumlarda 80 ABŞ əsgərinin öldüyünü açıqlasa da, Pentaqon ölənlərin olmadığını, 34 əsgərin beyin travması aldığını söyləyib.

### İran Ukrayna Hava Yollarına məxsus sərnişin təyyarəsini təsadüfən vurub: 176 ölü

Bu raket hücumlarında İran təsadüfən Ukrayna Hava Yollarına məxsus bir sərnişin təyyarəsini vurması, böhranı daha çox beynəlxalq müstəviyə apardı. 176 sərnişin daşıyan Boeing 737 PS-752 reysinin iki mərmidən atəşə tutulduğu bildirilsə də, qəzada sağ qalanlar olmayıb. İran rəsmiləri ilk açıqlamalarında təyyarənin mexaniki nasazlıq səbəbindən qəzaya uğradığını söyləyiblər.

### İndoneziyada daşqın: 53 nəfər ölüb

İndoneziyada güclü Mason yağışlarının yaratdığı sel və torpaq sürüşmələrində ən az 53 nəfər ölüb. Yeni il gecəsi başlayan və təxminən 4-5 gün davam edən yağışlar səbəbindən 200 minə yaxın insan evlərini tərk etmək məcburiyyətində qalıb. Fövqəladə Agentliyi İdarəsi (BNPB) 30 milyon insanın sel sularından təsirləndiyini açıqlayıb. Bu təbii fəlakət son 13 ildə ən böyük sel fəlakəti kimi qeydə alınıb.

### Filippində qorxulu partlayış: Taal vulkanı fəaliyyətə başlayıb

Yanvarın 12-də dünyanın ən kiçik vulkanı olan Taalın püskürməsi, 2020-ci ildə ən çox danışılan hadisələrdən biri olub. Partlayış nəticəsində ölən və yaralanan olmasa da, ətraf kəndlərdə yerli sakinlər və turistlər ehtiyat tədbiri olaraq ərazini tərk etməyə başlayıblar. Ölkədə baş verən zəlzələ və sunami fəlakətləri səbəbindən minlərlə insan həyatını itirib.

### Pakistanda uçqun fəlakəti: Kəşmirdə qar altında 57 nəfər həyatını itirib

14 yanvarda Pakistanın Kəşmir bölgəsində baş verən qar uçqunu dünya gündəminin diqqətini bu hadisəyə cəlb edib. Baş verən hadisədə 57 insan həyatını itirib. Rəsmilər son 20 ildə ən güclü qar yağdığını bildiriblər. Pakistan Meteoroloji İdarəsi yanvar ayında orta hesabla 50 santimetr olan qar qalınlığının son günlərdə yağıntı ilə 1,4 metr olaraq ölçüldüyünü açıqlayıb.

### Avstraliyada meşə yanğınları: 25 nəfər ölüb, 1,25 milyard heyvan tələf olub

2020-ci ilin yanvar ayında ən çox danışılan hadisə Avstraliyada aylardır davam edən və nəzarət altına alına bilməyən meşə yanğınları olub. Yanğınlar nəticəsində 25 nəfər ölüb, 8 milyon hektar meşə və yaşıllıq əraziləri kül olub. Ümumdünya Vəhşi Təbiət Fondu (WWF) Avstraliyadan edilən son açıqlamada, təxminən 1,25 milyard heyvanın öldüyünü təxmin etdiklərini söyləyib. Avstraliya Sığorta Təşkilatı ümumi zərərin 700 milyon dolları keçdiyini, təxminən 2000 min evin kül olduğunu açıqlayıb.

### Çində koronavirus həyəcanı: 135-dən çox insan ölüb, 6 min insan virusa yoluxub

Çində virusun yayılması bir anda dünyanın diqqətini Uzaq Şərqə çevirib. Şərqi Türküstandakı bir milyona yaxın uyğur və digər azsaylı müsəlmanların konsentrasiya düşərgələrində saxlanılması ilə bağlı iddialar davam edərkən Çin xəbər agentliklərinin başlıqlarında ölkənin 11 milyonluq əhalisi olan Uhan bölgəsində sürətlə yayılan və koronavirus epidemiyası haqda məlumat verib. Bu günə qədər virus 135 insanın ölümünə səbəb olub. Bu da öz növbəsində dünya ictimai rəyinin bir nömrəli məsələlərindən birinə çevrilib. Çin hakimiyyəti bu günə qədər 6000-dən çox insanın virusa yoluxduğunu açıqlayıb. Epidemiyanın sürətlə yayılması ABŞ-da, Fransada və Avropanın bəzi ölkələrində hadisələrin aşkarlanması ilə bağlı narahatlıq doğurub. Çindən başqa koronavirus digər Uzaq Şərq ölkələrində - Tayvan, Tayland, Yaponiya, Cənubi Koreya, Sinqapur və Nepalda, o cümlədən Hong Kong, Makao da aşkar edilib, ABŞ-da 1, Fransada 3, BƏƏ-də 1 nəfər bu virusa yoluxub.

### Elazığ 6.8 balla sarsılıb: 40 min köhnə tikili yararsız hala gəlib

Türkiyənin şərqində - Elazığda yaşanan 6.8 ballıq zəlzələdən sonra baş vermiş dabıntı nəticəsində insan itkiləri ölkə və dünya gündəmində olduqca danışılan hadisələr sırasında olub. İndiyə qədər baş verən zəlzələdə ölənlərin sayının 40-dan çox olduğu açıqlanıb. Axtarış-xilasetmə işlərinin sürətlə davam etdiyi Elazığ və qonşu əyalətlərdə minlərlə köhnə bina yararsız hala düşüb. Bir çox qeyri-hökumət təşkilatları ölkədə zəlzələ qurbanlarına kömək üçün səfərbərlik elan ediblər.

### NBA ulduzunun qəfil ölümü: Kobe Bryant vertolyot qəzasında ölüb

Məşhur NBA ulduzu, 20 yanvarda vertolyot qəzasında öldü və bu hadisə idman dünyasını yasa qərd edərkən, dünya mediasının diqqətini tamamilə özündə cəmlədi. Qəzanın yerli vaxtla səhər saat 10 radələrində Los-Ancelesin Calabasas rayonu ətrafındakı dumanlı hava səbəbiylə meydana gəldiyi açıqlanıb. Bryant və 13 yaşlı qızı Gianna Maria ilə birlikdə vertolyotda 9 nəfərdən sağ qalan yoxdur. Əfsanəvi 41 yaşlı ulduz, Los-Anceles Lakers formasını 20 il geyinib.

### Əfqanıstanda sərnişin təyyarəsi qəzaya uğrayıb

Aryana Hava Yollarına məxsus bir sərnişin təyyarəsinin Əfqanıstandakı Qəznə bölgəsində qəzaya uğradığı bildirilib. Əfqanıstanın vitse-prezidenti təyyarənin Aryana Hava Yollarına aid olduğunu açıqlasa da, həlelik hava yolları tərəfindən açıqlama verilməyib. Təyyarədə 83 nəfərin olduğu bildirilib.

**Aysel Məmmədova**








# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Abşeron seçiciləri Oqtay Əsədova səs verəcək





***Yeni Azərbaycan Partiyasının 45 saylı Abşeron Seçki Dairəsindən deputatlığa namizədi Oqtay Əsədovun seçiciləri ilə görüşü böyük coşqu və fəallıqla keçirilir.***

9 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən 45 saylı Abşeron Seçki Dairəsindən deputatlığa namizəd Oqtay Sabir oğlu Əsədovun vəkilləri məhəllə əraziləri üzrə seçicilərlə növbəti görüşlər keçirib. Deputatlığa namizədin vəkilləri Oqtay Əsədovun xalqa, dövlətə xeyirli, gərəkli fəaliyyətindən danışıb, seçiciləri 9 fevralda fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi Oqtay Əsədova səs verməyə çağırıblar. Görüşlərdə çıxış edən seçicilər ölkə Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədi olan Oqtay Əsədova səs verəcəklərini bildiriblər.

**RÖVŞƏN**

## Siyavuş Novruzov Şahbuz şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb

***5 saylı Şahbuz-Babək seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Dünyamalı oğlu Novruzov seçicilərlə görüşlərini davam etdirir. SİA-nın verdiyi məlumata görə, növbəti görüş yanvarın 28-də Şahbuz şəhər ictimaiyyətinin nümayəndələri ilə keçirilib. Görüşdə ziyalılar, gənclər və geniş ictimaiyyət nümayəndələri iştirak ediblər.***



Görüşü giriş sözü ilə açan YAP Şahbuz rayon təşkilatının sədri Rizvan Məmmədov qarşıdan gələn parlament seçkilərinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu qeyd edib. Deputatlığa namizəd Siyavuş Novruzovun fəaliyyəti haqqında məlumat verən R. Məmmədov deyib ki, o, ötən müddət ərzində seçicilərini parlamentdə layiqincə təmsil edib.



Deputatlığa namizəd Siyavuş Novruzov təbliğat-təşviqat kampaniyası çərçivəsində Şahbuz rayonunun 23 kəndində seçicilərlə məhsuldar görüşlərinin olduğunu diqqətə çatdıraraq deyib: “Görüşlər zamanı insanlar layiqli həyat şəraitlərinin və yüksək rifahlarının təmin olunmasına görə ölkə Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevə, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlıqlarını ifadə etdilər. Prezident İlham Əliyev muxtar respublikanın inkişafına daim böyük diqqət göstərib. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsi kimi, muxtar respublika iqtisadiyyatının dayanıqlı inkişafı təmin olunub, əhalinin rifah halı daha da yaxşılaşıb. Muxtar respublika ərazisində, o cümlədən Şahbuz rayonunda və onun bütün kəndlərində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müasir standartlar əsasında təhsil müəssisələri, sağlamlıq ocaqları tikilib və əsaslı təmir olunub, respublika əhəmiyyətli və bütün kənd yolları yenilənib, yüksək səviyyəli infrastruktur quruculuğu həyata keçirilib, fasiləsiz elektrik, qaz və su təminatı yaradılıb. Bütün bunlar inkişaf və tərəqqinin bariz nümunəsidir”.



O, təmsil etdiyi Yeni Azərbaycan Partiyasının fevralın 9-da keçiriləcək parlament seçkilərinə inamlı qələbə əzmi ilə getdiyini bildirib. Yeni Azərbaycan Partiyasının zəngin və şərəfli inkişaf yoluna nəzər salan S.Novruzov deyib ki, YAP Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, qatıldığı bütün seçkilərdə parlaq qələbələr qazanır. O, YAP-ın seçki proqramına nəzər salaraq son 5 il ərzində əldə olunmuş uğurlar barəsində və ölkəmizin daha da inkişafı üçün partiyanın 10 addım paketi haqqında məlumat verib: “Qarşıdakı dövrdə dayanıqlı iqtisadi inkişafın davam etdirilməsi, sahibkarlığın gücləndirilməsi, təhsilin səviyyəsinin artırılması, əhalinin rifahının daha da yaxşılaşdırılması, ölkəmizin beynəlxalq mövqeyinin möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ərazi bütövlüyümüzün bərpa olunması yönündə fəaliyyətin davam etdirilməsi və digər istiqamətlər strateji prioritetlər kimi müəyyənləşdirilib”.

Xalqın ümumxalq partiyası olan YAP-a olan yüksək inam və etimadının bu seçkilərdə də özünü göstərəciyini deyən Siyavuş Novruzov Yeni Azərbaycan Partiyasının möhtəşəm qələbə qazanacağına əminliyini ifadə edib. O, seçiciləri fevralın 9-da parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Şahbuz rayon ziyalısı, şəhər xəstəxanasının həkimi Taməddin Cəbiyev rayon ictimaiyyətinin daim Yeni Azərbaycan Partiyasına etimad göstərməsinin təsadüfi olmadığını bildirib: “YAP cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib, ona görə də xalqın partiyasıdır. Ziyalıların seçimi daim Yeni Azərbaycan Partiyası olub. Çünki bu partiya Azərbaycanın inkişafına dəyərli - layiqli töhfələr verib, ölkəmiz partiyamızın Sədri, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə misilsiz nailiyyətlər qazanaraq möhtəşəm zirvələr fəth edib. Mən bütün ziyalıları, rayon ictimaiyyətini YAP-ın namizədinə səs verməyə çağırıram”.

YAP Şahbuz rayon təşkilatının Gənclər Birliyinin sədr müavini Aytac Elyazova ölkəmizdə cəmiyyətin fəal və aparıcı təbəqəsi olan gənclərin YAP-ın hərtərəfli qayğısı ilə əhatə olunduğunu deyib. O, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin daim gənclərə xüsusi diqqət və qayğı göstərdiyini bildirib: “Partiyamız gənclərin intellektual potensialından və kreativ ideyalarından səmərəli istifadə edir. Azərbaycan gəncliyinin seçimi gənclərin partiyası olan YAP-dır”.

Tədbirdə çıxış edən seçicilər xalqın etimadını doğrultmuş YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər. Sonda seçicilərin təklifləri dinlənib, onları maraqlandıran suallar cavablandırılıb.

***Ceyhun Rasimoğlu***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

**_Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərdə 20 saylı Nərimanov ikinci Seçki Dairəsindən deputatlığa namizədliyini irəli sürən Adil Əliyev Azərbaycan Respublika Veteranlar Şurasında görüş keçirib. Böyük dəstək və coşqu ilə keçirilən görüşdə veteranlarla yanaşı, ölkənin tanınmış ziyalıları, ağsaqqalları, idman cameəsinin üzvləri və sakinlər iştirak ediblər._**






## Seçicilərindən Adil Əliyevə böyük dəstək

Görüşdə çıxış edən deputatlığa namizəd Adil Əliyev ölkədə aparılan islahatlardan, Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasətindən, dövlətin xalq üçün gördüyü çoxşaxəli işlərdən bəhs edərək, bildirib ki, reallaşdırılan islahatların tərkib hissəsi olaraq, parlament daxilində də bu mühüm addım atılır. "Əlbəttə, bu gün Azərbaycanda gedən yeniliklər öz dinamikliyi ilə seçilir və bu dinamiklik seçkilər ərəfəsində də özünü göstərir" deyən namizəd onu da bildirib ki, seçkilərin yüksək əhval-ruhiyyə şəraitində davam etməsi də, bunu kifayət qədər əks etdirməkdədir.

Namizəd gənclərin sağlam həyata, elmə, təhsilə, idmana önəm vermələrinin vacibliyindən də danışaraq, bildirib ki, hazırda prezidenti olduğu Kiq-boksinq Federasiyası onlarla belə gəncləri, həm də bir Azərbaycan əsgəri kimi yetişdirir, onların müxtəlif beynəlxalq yarış və turnirlərdə ölkəmizin bayrağını yüksəklərə qaldırdıqlarını, bundan sonsuz fəxarət hissi duyduğunu vurğulayıb.

Daha sonra Adil Əliyevin həyat və fəaliyyətini əks etdirən, öncəki seçkilərdə əldə etdiyi uğurlardan, millət vəkilliyi dövründə gördüyü işlərindən bəhs edən sənədli film nümayiş olunub.

Görüşdə çıxış edən ağsaqqallar, ziyalılar, Qarabağ və İkinci Dünya Müharibəsi veteranları, idman cameəsinin üzvləri Adil Əliyevi sona qədər dəstəkləyəcəklərini, onu bundan sonra da millət vəkili kimi görmək istədiklərini və seçimlərini, birmənalı olaraq, onun üzərində edəcəklərini vurğulayıblar.

**_Rövşən RƏSULOV_**

## Deputatlığa namizəd Eldar İbrahimovun Naxçıvan şəhərində seçicilərlə görüşü keçirilib



Fevralın 9-da keçiriləcək VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 4 saylı Naxçıvan şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş Eldar Rza oğlu İbrahimovun Naxçıvan şəhərində seçicilərlə görüşü keçirilib. SİA-nın verdiyi məlumata görə, görüşü giriş sözü ilə açan YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli ölkəmizdə həyata keçirilən islahatlardan və bu islahatların tərkib hissəsi kimi yeni parlamentin formalaşmasından bəhs edib. YAP Naxçıvan şəhər təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev görüşdə çıxış edərək seçiciləri Eldar İbrahimovun həyat və fəaliyyəti ilə yaxından tanış edib.

Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi Çapay Quliyev isə çıxışında müasir hüquqi, demokratik dövlətlərdə parlamentin siyasi idarəçilikdəki mühüm rolunu vurğulayıb.

Görüşdə çıxış edən deputatlığa namizəd Eldar İbrahimov bundan əvvəlki seçkilərdə ona etimad göstərib ölkə parlamentinə üzv seçdiklərinə görə seçicilərə dərin minnətdarlığını bildirib. O, Milli Məclisin üzvü kimi fəaliyyəti barədə seçicilərə hesabat verərək, parlamentin işində, onun beynəlxalq əlaqələrinin möhkəmləndirilməsində, aqrar qanunvericiliyin təkmilləşdirilməsindəki iştirakından ətraflı danışıb.

Son 16 ildə ölkəmizdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilmiş uğurlu dövlət quruculuğu siyasətinin bəhrələrindən söz açan namizəd həyata keçirilən siyasəti ifadə edən statistik rəqəmləri müqayisəli şəkildə seçicilərin diqqətinə çatdırıb. Xüsusən kənd təsərrüfatı, eləcə də qeyri-neft sektorunda yüksək nailiyyətlər əldə edildiyini vurğulayan Eldar İbrahimov əmin olduğunu bildirib ki, əsaslı qanunvericilik bazasının yaradıldığı bu sahənin uğurları artan dinamika ilə davam edəcək. Eldar İbrahimov seçicilərin ona növbəti dəfə etimad göstərib Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçəcəyi təqdirdə bu günə qədər olduğu kimi, bundan sonra da, parlamentin üzvü olaraq, ölkəmizin inkişafı naminə bilik, bacarıq və təcrübəsini əsirgəməyəcəyini bildirib.

Seçicilər də öz növbələrində Eldar İbrahimovu əmin ediblər ki, əvvəlki seçkilərdə olduğu kimi, builki parlament seçkisində də müstəqil Azərbaycan dövlətinin inkişafının qarantı olan Yeni Azərbaycan Partiyasının namizədini qətiyyətlə dəstəkləyəcəklər. Yüksək fəallıq şəraitində keçən görüşə yekun vuran YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli bir daha Naxçıvan şəhər seçicilərini 9 fevralda keçiriləcək parlament seçkilərində fəal olmağa və partiyamızın namizədi Eldar İbrahimova səs verməyə çağırıb.

## Mahir Abbaszadənin seçiciləri ilə görüşləri davam edir





Milli Məclisə seçkilərdə namizədliyi 121 saylı Laçın Seçki Dairəsindən irəli sürülmüş Mahir Abbaszadə Binəqədi rayonunun ardınca Bakının Xətai rayonunda məskunlaşmış seçiciləri ilə də görüş keçirib.

Görüşdə çıxış edən Mahir Abbaszadə özünün seçki platforması haqqında geniş məlumat verib. Çıxış edənlər onun V çağırış Milli Məclisdəki fəaliyyətinə qiymət verib və təkliflərini irəli sürüb. Eyni zamanda, seçicilərin müraciətləri dinlənilib.

Xatırladaq ki, təbliğat-təşviqat kampaniyasının başladığı ilk gündən M.Abbaszadə Laçın rayon sakinlərinin müvəqqəti məskunlaşdığı yerlərdə çoxsaylı görüşlər keçirib, şəhid ailələrinə və rayon ağsaqqallarına evlərində baş çəkib. Namizədin seçki qərargahından verilən məlumata görə, görüşlər ölkənin digər rayonlarında davam etdiriləcək. Bütövlükdə, Laçın rayon əhalisi məcburi köçkün olaraq, Azərbaycanın 58 rayonunda məskunlaşıb.

**_RƏFİQƏ KAMALQIZI_**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

***Dünən 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Ağalar Vəliyevin Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərində seçicilərlə görüşləri olub.***



## YAP-ın namizədi Ağalar Vəliyevin seçicilərlə növbəti görüşü keçirilib





Görüşlərdə YAP Goranboy rayon təşkilatının yerli qərargah üzvləri, Yeni Azərbaycan Partiyasının 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsindən Milli Məclis üzvlüyünə namizədliyi irəli sürülən Ağalar Vəliyevin seçkiqabağı təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Tərtər rayonun Borsunlu, Sarov və Bəyimsarov kəndlərinin seçiciləri ilə keçirib.

YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov 9 fevral parlament seçkilərinin əhəmiyyətindən danışıb. O, qeyd edib ki, Azərbaycan mühüm siyasi hadisə ərəfəsindədir - fevralın 9-da ölkəmizdə parlament seçkiləri keçiriləcək. R.Şabanov 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Ağalar Vəliyevin fəaliyyəti haqqında məlumat verib.

Deputatlığa namizəd Ağalar Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin ölkəmizin dinamik inkişafını təmin etdiyini diqqətə çatdırıb, xalq-iqtidar birliyinin əhəmiyyətindən, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən məqsədyönlü tədbirlərin səmərəli nəticələrindən, ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsindən bəhs edib: “Yeni Azərbaycan Partiyası xalqın dəstəyi əsasında parlament seçkilərində parlaq qələbə qazanmaq əzmindədir. Çünki Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçmiş YAP yüksək nüfuza malikdir” deyən Ağalar Vəliyev seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

***Rövşən RƏSULOV***



2003-cü ildən isə Cənab Prezidentimiz İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirilməsindən bəhs edib. Yeni Azərbaycan Pariyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə toxunan Cavid Osmanov bildirib ki, Azərbaycan son illər ərzində bir çox beynəlxalq əhəmiyyətli layihələrə imza atmışdır. Eyni zamanda, ölkədə abadlıq-quruculuq işləri davamlı şəkildə həyata keçirilməkdədir. Cənab

## Deputatlığa namizəd Cavid Osmanovun təbliğat kampaniyası Ağdaşda uğurla davam edir



Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cavid Osmanovun təbliğat kampaniyası Ağdaşda uğurla davam edir. Kampaniya çərçivəsində növbəti görüş Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının binasında Ağdaş şəhər seçiciləri və ziyalıları ilə keçirilib.

Görüşü açan Cavid Osmanov 9 fevral parlament seçkiləri haqqında məlumat verib və bu vaxta qədər görülən işlərdən danışıb. Son illər ərzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkədə elm-təhsil sahəsinə göstərdikləri diqqət və qayğıdan söz açan Cavid Osmanov, respublikamızın hər bir bölgəsində olduğu kimi, Ağdaş rayonunda da dövlətin təhsilə göstərdiyi diqqətin çox yüksək olduğunu bildirib. Rayonda tikilərək, istifadəyə verilən uşaq bağçaları, məktəb binaları, mövcud tədris ocaqlarının əsaslı təmiri, hər bir məktəbin müasir maddi-texniki təchizatla təmin olunmasının deyilənlərə sübut olduğunu vurğulayan Cavid Osmanov, ölkə təhsilinin məzmun baxımından da yeniləndiyini və dövlətimiz tərəfindən davamlı işlər görüldüyünü qeyd edib.

Cavid Osmanov bildirib ki, ağdaşlı seçicilər və ziyalılar ilə keçirilən bu görüş əlamətdar bir günə - YAP Ağdaş rayon təşkilatının yaranmasının 25-ci ildönümünün qeyd edildiyi bir günə təsadüf edir. Görüş iştirakçılarını bu əlamətdar gün münasibəti ilə təbrik edən Cavid Osmanov Yeni Azərbaycan Partiyasının artıq dünyada tanınmış nüfuzlu bir siyasi partiya olduğunu, eləcə də, bu işdə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi ardıcıl siyasətdən, Prezidentin struktur islahatlarına diqqət çəkən Cavid Osmanov bütün bunların Azərbaycanı daha müasir dövlətə çevirməyin əsaslarından biri olduğunu qeyd edib.

Görüşdə çıxış edən ziyalılar bildiriblər ki, ölkə təhsilinə göstərilən diqqət və qayğını onlar hər gün öz işlərində, eləcə də, sosial rifah hallarının yüksəlməsində də hiss edirlər. Bu isə Sədri Cənab İlham Əliyev olan Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi siyasi dəst-xəttin nəticəsidir. Qarşıdan gələn parlament seçkilərində də Cavid Osmanovun namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən yenidən irəli sürülməsini fəxr və qürur hissləri ilə qarşıladıqlarını qeyd edən çıxışçılar bunun partiyamızın Sədri, ölkə Prezidenti Cənab İlham Əliyevin sıralarında 18 minə yaxın üzvü birləşdirən və ən böyük rayon təşkilatlarından biri olan Ağdaş rayon təşkilatına və onun sədrinə olan böyük etimadın təzahürü kimi qəbul etdiklərini bildiriblər. Bəyan edilib ki, onların seçimi Ağdaşı Milli Məclisdə layiqincə təmsil edən Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanovdur. Onlar fevralın 9-da böyük coşquyla seçki məntəqələrinə gedərək, bu seçimlərini rəsmi olaraq, bir daha təsdiqləyəcəklər.

Görüşdən sonra Cavid Osmanov ağdaşlı seçicilər və ziyalılarla birlikdə xalqımızın Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının banisi Heydər Əliyevin rayon mərkəzində ucaldılan abidəsini ziyarət ediblər, abidəsi önünə tər gül-çiçək dəstələri düzərək, böyük ehtiramla Ulu Öndərin xatirəsini yad ediblər. Abidə önündə seçicilər ilə xatirə şəkilləri çəkdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## YAP-ın namizədi Məlahət İbrahimqızının təbliğat-təşviqat kampaniyası uğurla davam edir





Nəsimi rayonu, 1-ci mikrorayon, Cavadxan küçəsi 1-3 ünvanında Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi birinci Seçki Dairəsi üzrə vahid namizədi Məlahət İbrahimqızının seçicilərlə növbəti görüşü keçirilib. Görüşdə YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı çıxış edərək Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin apardığı böyük islahatlardan danışıb. 9 fevralda keçiriləcək Milli Məclisə seçkilərdə ona yenidən böyük etimad göstərildiyini vurğulayan Məlahət İbrahimqızı bu etimada görə Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirərək, bu şərəfli və məsuliyyətli yolda bundan sonra da dövlətimizin qarşıya qoyduğu vəzifələrin xalqın və cəmiyyətin istəyinə uyğun layiqincə yerinə yetirəcəyini bildirib. Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi dərin, sistemli və ardıcıl islahatlar kursu, onun əsas istiqamətləri və reallaşdırılma mexanizmləri haqqında ətraflı məlumat verib. Qeyd edib ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır.

Görüş zamanı seçicilər ölkədə gedən islahatları yüksək qiymətləndiriblər. Sonra onların problemləri, şikayət və təklifləri dinlənilib və həlli istiqamətində yerindəcə addımlar atılıb. Deputatlığa namizəd Məlahət İbrahimqızı çıxışında bildirib ki, bugünədək görüşlərdə qaldırılan problemləri təhlil edir və həlli mümkün olan problemləri operativ həll etməyə çalışır.

Görüşün yekununda Yeni Azərbaycan Partiyasının vahid namizədi Məlahət İbrahimqızı seçiciləri "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Kamaləddin Qafarovun seçicilərlə görüşləri davam edir



Fevralın 9-da keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən 9 saylı Binəqədi ikinci Seçki Dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamaləddin Qafarovun seçicilərlə görüşü uğurla davam edir. Namizədin növbəti görüşü M.Ə.Rəsulzadə qəsəbəsinin Abdınbəyov və Xutor yaşayış massivinin S.Bəhlulzadə küçələrinin bir qrup sakini ilə baş tutub.

Görüş zamanı seçicilər yaşadıqları ərazilərin problemlərini həll etmək üçün deputatlığa namizəddən kömək göstərməyi xahiş etmişlər.



Deputatlığa namizəd Kamaləddin Qafarov bu arzu və istəklərinə qanuna müvafiq qaydada yanaşacağını və onları nəzarətdə saxlayacağını bildirmişdir. YAP-ın namizədi "Daha güclü Azərbaycan naminə!" şüarı ilə hər kəsi ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinin ətrafında daha da sıx birləşməyə və 9 fevral - seçki günü fəal olmağa dəvət edib.

Yüksək əhvali-ruhiyyədə keçən görüşdə seçicilər də, öz növbələrində, Kamaləddin Qafarovu tam əmin ediblər ki, əvvəlki seçkilərdə olduğu kimi, builki parlament seçkisində də müstəqil Azərbaycan dövlətinin inkişafının qarantı olan Yeni Azərbaycan Partiyasının namizədini qətiyyətlə dəstəkləyəcəklər.

**ZÜMRÜD**

## Ağstafalılar Nizami Cəfərova səs verəcəklər





Dünən 9 fevralda keçiriləcək parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Nizami Cəfərovun Ağstafa rayonunun Köçvəlili kəndində, Saloğlu və Qarayazı qəsəbələrində seçicilər ilə görüşü keçirilib.

Seçicilərlə görüşdə Nizami Cəfərov ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər haqqında danışıb, əhalinin rifah şəraiti, sakinləri narahat edən məişət problemləri ilə maraqlanıb. Seçiləcəyi təqdirdə, rayon ərazisində görüləcək işlər haqqında məlumat verən YAP namizədi daha güclü Azərbaycan naminə hər kəsi ölkə başçısı Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinin ətrafında daha da sıx birləşməyə və 9 fevral- seçki günü fəal olmağa dəvət edib. Sakinlər qarşıdan gələn parlament seçkilərində Cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

**R.HÜSEYNOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Seçiciləri deputatlığa namizəd Kamilə Əliyevanı dəstəkləyəcəklər





Fevralın 9-da ölkəmizdə keçiriləcək parlament seçkilərində 111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşü uğurla davam edir. Deputatlığa namizəd Kamilə Əliyevanın növbəti görüşü Balakənin Püştətala kənd sakinləri ilə keçirilib.

Namizəd Kamilə Əliyeva çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdən, bu siyasət nəticəsində, dövlətimizin yeni inkişaf mərhələsinə qədəm qoyması haqqında seçiciləri məlumatlandırıb: "Aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır. İslahatlar ölkə vətəndaşının sosial durumunu xeyli dərəcədə yüksəldib və rayonlarda müasir infrastrukturlar yaradılıb. Təbii ki, bütün bunlara görə Prezidentimiz İlham Əliyevə təşəkkür edirik. Şübhə yoxdur ki, bu inkişaf qarşıdakı illərdə daha geniş vüsət alacaq".

Kamilə Əliyeva, eyni zamanda, seçki platforması haqqında, deputat olduğu dönəmdə göstərdiyi fəaliyyəti barədə seçicilərin diqqətinə çatdırıb. Daha sonra Kamilə xanım seçiciləri "Daha güclü Azərbaycan naminə" YAP-ın namizədinə səs verməyə dəvət edib.

Sonda seçicilər çıxışları zamanı öz razılıqlarını bildirərək, partiyanın namizədi Kamilə Əliyevanı dəstəkləyəcəklərini və seçimlərinin, birmənalı olaraq, onun üzərində edəcəklərini vurğulayıblar.

**ZÜMRÜD BAYRAMOVA**



## Masallı seçicilərinin seçimi Məşhur Məmmədovdur



Dünən 9 fevral parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində 70 saylı Masallı şəhər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məmmədov Məşhur Şahbaz oğlunun "Daha güclü Azərbaycan naminə!" devizi altında YAP Masallı rayon təşkilatının qərargahında rayon sakinləri və ziyalılarla növbəti görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev hər zaman dövlətçiliyə bağlılıqları ilə seçilən Masallı seçicilərinin bu dəfə də "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərinə inandığını bildirib.

Görüşdə çıxış edən YAP-ın namizədi Məşhur Məmmədov Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin mahiyyətindən bəhs edib, dövlət siyasətinin mərkəzində ölkə vətəndaşlarının rifahı və mənafeyinin dayandığını söyləyib.

YAP-ın parlament seçkilərinə namizədi Məşhur Məmmədov, çıxışında bu seçkidə namizədi olduğu partiyanın amalının "Daha güclü Azərbaycan naminə!" olduğunu vurğulayıb. O bildirib ki, Yeni Azərbaycan Partiyasının növbəti dəfə seçkilərdə böyük və inamlı qələbə qazanacağına əmindir. Məşhur Məmmədov millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb, partiyanın seçki platforması barədə dolğun və ətraflı məlumat verib.

Görüşdə çıxış edənlər Məşhur Məmmədovun millət vəkili seçilməyə layiq olduğunu vurğulayıb və 9 fevralda keçiriləcək seçkilərdə, məhz ona səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ HÜSEYNOVA**

## Deputatlığa namizəd Aqil Məmmədovun seçicilərlə görüşləri davam edir

Fevralın 9-da Azərbaycanda növbəti parlament seçkilərinə namizədliyi irəli sürülən namizədlərin təbliğat-təşviqat kampaniyası yüksək səviyyədə davam etməkdədir. 123 saylı Kəlbəcər Seçki Dairəsi Yeni Azərbaycan Partiyasının millət vəkilliyinə namizədi Aqil Sadiq oğlu Məmmədov Tərtər və Bərdə rayonlarında olan kəlbəcərli seçicilərlə növbəti görüşləri keçirilib.

Görüşdə çıxış edən deputatlığa namizəd Aqil Məmmədov ölkə başçısı tərəfindən yürüdülən uğurlu siyasətdən, bütün sahələri əhatə edən kompleks islahatlardan və insanların rifah halının yaxşılaşdırılmasından söz açıb. YAP-ın bu seçkilərə "Daha güclü Azərbaycan naminə!" şüarı ilə qatıldığını bildirən Aqil Məmmədov seçicilərin ona etimad göstərərlərsə, gələcəkdə onları və bütövlükdə, ölkəmizi layiqincə təmsil etmək üçün əlindən gələni edəcəyinə söz verib. O, həmçinin, platforması barədə də məlumat verib.

Görüşdə iştirak edən kənd sakinləri, ziyalılar və ağsaqqallar Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aqil Məmmədova yekdilliklə səs verəcəklərini bildiriblər.

Daha sonra deputatlığa namizəd Aqil Məmmədov Bərdədə məskunlaşan kəlbəcərlilərlə görüş keçirib. YAP-ın namizədi ölkəmizdə bütün sahələr üzrə əldə edilmiş uğurlardan, tətbiq edilən yeniliklərdən söz açıb. Aqil Məmmədov bu siyasətin davamı üçün hər kəs Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Seçicilər 9 fevralda keçiriləcək parlament seçkilərində yüksək fəallıqla iştirak edəcəklərinə söz veriblər. Bildiriblər ki, YAP-ın namizədlərinə səs verməklə bugünkü inkişafa, bu inkişafın davamlılığına səs vermiş olacaqlar. Hamını 9 fevral parlament seçkisində birlik nümayiş etdirməyə səsləyiblər.

**RƏFİQƏ HÜSEYNOVA**





# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*






## Deputatlığa namizəd Məlahət İbrahimqızı seçicilərlə növbəti görüşlərini keçirib

***Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi birinci Seçki Dairəsi üzrə deputatlığa namizədi Məlahət İbrahimqızının parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşlərini 1-ci mikrorayon Cavadxan -1, 3-cü mikrorayon A.Mustafayev-12, A. Məhərrəmli-4 ünvanlarında və Nəsimi rayonunun ağsaqqalları və ağbirçəkləri ilə keçirib.***

Görüşlərdə deputatlığa namizəd Məlahət İbrahimqızı çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib: “Bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir. Sosial-iqtisadi, məhkəmə-hüquq sistemində aparılan islahatlar ciddi nəticələr verməkdədir, vətəndaşlar islahatların nəticələrini öz həyatlarında hiss edirlər”. M.İbrahimqızı söyləyib ki, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində də sosial məsələlərin həlli xüsusi yer tututr.

Azərbaycanın hüquqi-demokratik dövlət olduğunu deyən Məlahət İbrahimqızı bildirib ki, ölkəmizdə bütün seçkilər azad və demokratik keçirilib. Budəfəki parlament seçkilərinin azad və şəffaf keçirilməsi üçün dövlət tərəfindən lazımi tədbirlər görülüb və namizədlər üçün bərabər şərait yaradılıb. Deputatlığa namizəd, həmçinin, YAP-ın Seçki Proqramı haqqında seçicilərə ətraflı məlumat verib və daha güclü Azərbaycan naminə qarşıda duran vəzifələrdən bəhs edib.

Bakı şəhərində abadlıq və quruculuq işlərinin böyük vüsət aldığını deyən M.İbrahimqızı bu prosesin Nəsimi rayonunda da uğurla davam etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakıda abadlıq işlərinin görülməsi, abad həyətlərin yaradılması insanlar tərəfindən böyük rəğbətlə qarşılanır.

M.İbrahimqızı bu uğurların davamlı olması üçün, daha güclü Azərbaycan naminə seçiciləri 9 fevral parlament seçkilərində YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini, 9 fevral parlament seçkilərində də YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər. Eyni zamanda, görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri də dinlənilib. Deputatlığa namizəd Məlahət İbrahimqızı qaldırılan məsələlərin təhlil olunaraq, həll edilməsi istiqamətində zəruri addımların atılacağını diqqətə çatdırıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Aydın Hüseynov Müşfiqabad qəsəbəsində də dəstəklənəcək





Dünən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 11 saylı Seçki Dairəsindən irəli sürülmüş Aydın Hüseynovun seçicilərlə görüşü növbəti dəfə Müşfiqabad qəsəbəsində keçirilib.

Seçicilərə YAP-ın seçki Platforması barədə ətraflı məlumat verən Aydın Hüseynov dövlətçiliyimizin formalaşmasında və möhkəmlənməsində, ölkəmizin bütün sahələr üzrə inkişafında və xalqımızın rifahının getdikcə yaxşılaşmasında YAP-ın müstəsna xidmətlərinə toxunub. Qeyd edib ki, xalqın yekdil səsi ilə iqtidar partiyasına çevrilən YAP Azərbaycanda təməlini qoyduğu inkişafı durmadan davam etdirir.

“İlbəil artan dövlət büdcəsi ölkəmizdə yaşayış tərzinin yüksəldilməsinə müsbət töhfəsini verməkdədir” deyən YAP-ın namizədi Aydın Hüseynov bildirib ki, xalqın etimadını real fəaliyyəti ilə doğruldan partiyamız növbəti seçkilərə də ciddi hazırlaşır: “Həm seçkilərin azad, ədalətli və demokratik keçirilməsinə çalışır, həm də növbəti dəfə seçicilərin yekdil səsi ilə qanunvericilik fəaliyyətini də genişləndirmək istəyindədir. Keçirilən bütün görüşlərdə YAP-ın cəmiyyətdə rolunu və daha yaxşı gələcək naminə siyasətini seçicilərlə birlikdə müzakirə edirik. Ölkəmizdə iqtidar partiyası olaraq YAP-ın fəaliyyətini yüksək qiymətləndirən seçicilər növbəti seçkilərdə də daha güclü Azərbaycan naminə partiyanın namizədlərinə yekdilliklə səs verəcəklərini inanıram”.

Görüşdə iştirak edən seçicilər də çıxışlarında 9 fevralda keçiriləcək seçkilərdə əvvəlkindən də daha fəal olacaqlarını və YAP-nın irəli sürdüyü Aydın Hüseynova səs verəcəklərini söyləyiblər.

***RƏFİQƏ HÜSEYNOVA***

## Eldəniz Səlimov seçicilər ilə görüş keçirib

YAP Xaçmaz rayon təşkilatı 9 fevral 2020-ci il tarixində keçiriləcək Milli Məclisə seçkilərinin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Eldəniz Səlimovla rayonun Aşağı Zeyid, Çılğır, Qədimalı Qışlaq, Şıxhaput, Alıc, Qaraçaycek və Qaracegzeyid kəndlərinin seçiciləri ilə görüşü keçirilib. Görüşü giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xan-Babayev açaraq, ölkəmizdə Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu islahatların nəticəsi olaraq dövlətimiz, iqtisadiyyatımızın gücləndiyini və insanların rifah halının yaxşılaşdığını bildirib.





Ş.Xan-Babayev deputatlığa namizəd Eldəniz Səlimovun ötən çağırışdakı fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Görüşdə YAP-ın parlament seçkilərinə namizəd Eldəniz Səlimov çıxış edərək seçki platforması və yenidən millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlər barədə dolğun, ətraflı məlumat verib və seçicilərinin etimadını əzmlə yerinə yetirməyə çalışacağına söz verib.

YAP-ın namizədi seçki ərəfəsində olduqlarını və seçicilərin öz seçimlərində fəal olacaqlarına və düzgün mövqe nümayiş etdirəcəklərinə inandığını da söyləyib: “Sizləri layiqli və onların problemlərində yardımçı ola biləcək namizədlərə səs verməyə çağırıram. Azərbaycanın bugünkü inkişafı, onun regionun qüdrətli dövlət olaraq, adının hallanması və dünyada aparıcı imicinin qorunub-saxlanması naminə xalqın layiqli övladları Milli Məclisin üzvləri seçilməlidir. Hər birinizi seçki günü ən real namizədlərə səs verməyə çağırıram”.

***RƏFİQƏ HÜSEYNOVA***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## QUSAR





51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində Qusar rayonunun Avaran, Xürəl və Aşağı Ləgər kəndlərində seçicilərlə görüşü keçirilib. Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Azərbaycanda seçkilərin yerli qanunvericiliyə və beynəlxalq standartlara uyğun keçirildiyini bildirib. Azərbaycan siyasi palitrasının ən güclü ictimai-siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının seçkilərdə mütəmadi qələbələr qazandığını bildirib.

David İbramxəlilov Azər Badamovun fəaliyyətinə nəzər salaraq, seçiciləri partiyanın namizədinə səs verməyə çağırıb.

Görüşlərdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, Milli Məclisin deputatı olduğu dövrdə özünün fəaliyyəti barədə seçicilərə ətraflı məlumat verib.

Görüşlərdə çıxış edən kənd sakinləri Xavər Ağamətova, Fərhad Həsənov və Nurlan Bədirxanov Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildirdilər.

## ZƏRDAB



92 saylı Zərdab-Ucar Seçki Dairəsindən YAP-ın deputatlığa namizədi Urfan Əhmədov seçicilərlə görüşlərini davam etdirir. Yeni Azərbaycan Partiyasının 92 saylı Zərdab - Ucar Seçki Dairəsi üzrə deputatlığa namizədi Urfan Əhmədov seçki kampaniyası çərçivəsində Əlvənd, Otmanoba, Şahhüseynli, Şəftəhal, Şıxbağı, Nəzəralı, Kəndəbil və Ağabağı kənd seçiciləri ilə növbəti görüşünü keçirib.

Görüşdə çıxış edən deputatlığa namizəd Urfan Əhmədov bildirib ki, regionların, o cümlədən, rayonumuzun inkişafı ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Dövlət proqramlarına uyğun olaraq, respublikanın hər yerində olduğu kimi, Zərdab rayonunda da bir sıra mühüm infrastruktur layihələri həyata keçirilir.

Urfan Əhmədov onu da bildirib ki, seçkilər demokratiyanın atributlarından biridir: "Hər bir vətəndaş seçki hüququndan istifadə etməlidir. Azərbaycanın bugünkü inkişafının təməlində Ulu Öndər Heydər Əliyev siyasəti və bu siyasəti uğurla həyata keçirən Prezident İlham Əliyevin fəaliyyəti dayanır. Ona görə də, uğurların davamlı olması üçün seçiciləri Prezidentimiz İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıram".

U.Əhmədov görüşdə Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi dərin, sistemli və ardıcıl islahatlar kursu, onun əsas istiqamətləri və reallaşdırılma mexanizmləri haqqında ətraflı məlumat verib. O, qeyd edib ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Xalq, birmənalı olaraq, Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini müdafiə edir. Dövlət başçısı da yalnız milli maraqlara söykənən müstəqil siyasət həyata keçirir.

Sonra seçicilər Yeni Azərbaycan Partiyasının namizədi və onun səsləndirdiyi fikirlər ətrafında mövqelərini bildiriblər. Onlar, bütün digər seçkilərdə olduğu kimi, növbəti parlament seçkilərində də YAP-ın seçicilərin mütləq əksəriyyətinin etimadını qazanaraq, Milli Məclisdə ən yüksək səviyyədə təmsil olunacağına əminliklərini ifadə ediblər.

## SABUNÇU





Dünən Yeni Azərbaycan Partiyası tərəfindən 27 saylı Sabunçu ikinci Seçki Dairəsindən namizədliyi irəli sürülən Əliabbas Salahzadənin təşviqatı ilə əlaqədar Sabunçu rayonunun Ramana qəsəbəsinin seçiciləri ilə görüşü keçirilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının aparat rəhbəri Rəşad Abbasəliyev YAP tərəfindən parlament seçkilərinə namizədliyi irəli sürülən Əliabbas Salahzadənin həyatı və fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, 9 fevralda keçiriləcək parlament seçkilərində də mütləq səs çoxluğu ilə YAP namizədləri qələbə qazanacaqlar.

Deputatlığa namizəd Əliabbas Salahzadə görüşdə öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Əliabbas Salahzadə seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağına inandığını və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını və seçicilərin etimadını doğruldacağını söyləyib.

Ramana seçiciləri də 9 fevralda keçiriləcək parlament seçkiləri zamanı hamını YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

## OĞUZ







Yanvarın 29-da 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsindən deputatlığa namizəd Aqiyə Naxçıvanlının təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Yemişənli, Dəymədərə, Padar, Çaldaş, Çayqovuşan və Qarabulaq kəndlərində seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən Aqiyə Naxçıvanlı dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bölgələrin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarından danışaraq, son illərdə respublikanın bütün şəhər, rayon və qəsəbələrində sürətlə davam edən inkişaf barədə geniş məlumatlar verib. Həmçinin, seçiciləri maraqlandıran bir çox məsələlər barədə müzakirələr aparıb, qanunvericilik sahəsindəki yeniliklərdən, beynəlxalq aləmdə Azərbaycanın artan nüfuzundan, bu sahədə dövlət başçısının əzmkar fəaliyyətindən söhbət açıb.

Görüşlərdə çıxış edən seçicilər ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların vətəndaş məmnunluğunu artırdığını, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət etdiyini qeyd ediblər.

Seçicilərdən Solmaz Adilova, Fikrət Hüseynov, Arzu Şahhüseynov, Sədrəddin Qarayev, Aidə Məmmədyarova, Mətanət Kərimova və digərləri fevralın 9-da keçiriləcək seçkilərdə fəal olaraq layiqli namizədə səs verəcəklərini bildiriblər.

***RƏFİQƏ HÜSEYNOVA***
***RÖVŞƏN RƏSULOV***
***ZÜMRÜD BAYRAMOVA***
***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Müxalifət özünə inanmır

## Və ya seçki oyunbazlığı arxasında hansı məqamlar dayanır?

***Fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası uğurla davam etməkdədir. Seçkilərdə iştirak edən və deputat mandatı qazanmağa iddialı olan bütün siyasi partiyalara təbliğat-təşviqat kampaniyasını aparmaq üçün dövlət tərəfindən bütün lazımi şərait yaradılıb. Lakin parlament seçkilərinə qatılan bəzi siyasi partiyalar, o cümlədən, Müsavat və “REAL” partiyalarının 9 fevral parlament seçkiləri zamanı, guya namizədlərin təbliğat-təşviqat mərhələsində bir sıra pozuntuların olmasını iddia edirlər və vurğulayırlar ki, bu iddialar sırasına bərabərlik prinsipinin pozulması, görüşlərin təşkilində inzibati resurslardan istifadə olunması, seçicilərlə görüşlərə maneçilik törədilməsi, plakatların cırılması, seçicilərin ələ alınması və s. daxildir.***



Sirr deyil ki, heç bir ölkədə seçki prosesi qüsursuz olmur, bu və ya digər şəkildə namizədlər tərəfindən prosedur qaydalarının pozulması, müxtəlif qeyri-qanuni üsullardan istifadə olunması və s. pozuntular və neqativ hallar müşahidə olunur. Hətta ən inkişaf etmiş, demokratiyanın beşiyi hesab edilən ölkələrdə belə, bu kimi faktlar kifayət qədərdir. Əsas məsələ pozuntuların sistem xarakteri daşımaması, kütləvi hal almaması və seçkilərin nəticəsinə təsir göstərməməsidir. Hazırda Azərbaycanda keçiriləcək parlament seçkilərinin namizədliyin irəli sürülməsi, qeydiyyatı və təşviqat mərhələlərinin təhlili, onu deməyə əsas verir ki, seçkilərin demokratikliyinə, şəffaflığına, bərabərlik və ədalət prinsiplərinin təmin edilməsinə xələl gətirə biləcək tendensiya müşahidə olunmur. Ümumilikdə, seçkilərdə iştirak üçün 2431 nəfər müraciət edib, seçkilərdə qeydiyyata alınan namizədlərin sayı 1374 nəfərdir, onlardan 248 nəfəri 19 siyasi partiyanın nümayəndəsidir. Bu fakt parlament seçkilərinə cəmiyyətdə böyük maraq olduğunu, rekord sayda namizədlərin seçki prosesinə qatıldığını əyani şəkildə təsdiq edir. Bütün yaşayış məntəqələrində seçicilərlə görüş üçün ən münasib yerlər ayrılıb, namizədlər öz seçiciləri ilə görüşmək imkanına malikdirlər, bu imkanlardan yetərincə yararlanırlar. Namizədlər hər bir yaşayış məntəqəsində xüsusi ayrılmış yerlərdə təşviqat materiallarını yerləşdirirlər. Bəzi hallarda, plakatların cırılması yolverilməz haldır. Lakin yüksək rəqabətlilik şəraitində keçən seçkilərdə bəzi namizədlərin öz rəqiblərinə qarşı qeyri-qanuni üsullardan istifadə etməkləri faktları olduğu halda, bununla bağlı MSK-ya müraciət etmək zəruridir. Sözügedən məsələ ilə bağlı Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, hər hansı neqativ halla bağlı MSK-ya müraciət daxil olsa, buna baxılacaqdır: “Namizədlərin hansısa yolla ələ alınması qanunvericiliyə zidd və buna heç cür imkan verilməyəcək. Seçkiləri 41 beynəlxalq qurumdan, 44 ölkənin vətəndaşlarından ibarət 409 nəfər beynəlxalq müşahidəçi izləyəcək. Yerli müşahidəçilərin sayı 54 min 292 nəfərdir. Bu da, seçkilərə həm beynəlxalq aləmin, həm ictimaiyyətin böyük marağının olduğunu göstərməklə yanaşı, həm də ciddi ictimai nəzarət mexanizminin təmin edildiyini təsdiqləyir”.

### Xalq-İqtidar birliyi - Nəticə QƏLƏBƏDİR!

Həqiqətən də, müxalifət partiyaları çox qəribə məntiqlə çıxış edirlər. Yuxarıda qeyd etdiyimiz kimi, guya iqtidar onların seçkidə iştirakı üçün imkan yaratmalıdır. Az qalır desinlər ki, hakimiyyət onların seçkidə qalib gəlməsi üçün şərait yaratmalıdır. Bu, olduqca qəribə məntiqdir. Belə çıxır ki, iqtidar müxalifətin qalib gəlməsi üçün onlara imkan yaratmalıdır. Məgər bu, YAP-ın borcudur? Yaxud kiminsə yarışda qalib gəlməsi üçün rəqib tərəf ona imkan yaratmalıdır? Qəribə məntiq onların bütün bu məsələlərə nə qədər qeyri-ciddi yanaşdıqlarını göstərir. Əgər müxalifət partiyaları cəmiyyəti özlərinin haqlı olduğuna inandıra bilsəydilər, kiminsə seçkidə qələbə qazanmaq üçün şərait yaratmasına ehtiyac qalmazdı. 1993-cü ildə YAP-ın hakimiyyətə gəlməsi üçün o zaman hakimiyyətdə olan qüvvələr şərait yaratmışdılar? Bu imkanı Xalq Cəbhəsi, yoxsa Müsavatmı yaratdı? Yaxud meydanlarda aksiyalar, mitinqlər etmək çağırışı edilirdi? Bir məqamı unutmaq olmaz ki, qanunvericilik seçkidə iştirak edən bütün partiyalar üçündür. Müxalifətin əsas niyyəti seçki komissiyalarında özlərinə uyğun mövqe əldə etmək hesabına seçkinin nəticələrini özlərinin maraqlarına uyğun təmin etməkdir. Bu, qeyri-demokratik bir yanaşmadır. Ona görə də, bugünkü müxalifət 92-ci ildəki seçkiləri dəstəkləyir, onu təmin etdiyi üçün həmin komissiyaları dəstəkləyir. Deməli, müxalifət, sadəcə olaraq, o seçkini qəbul etmək istəyir ki, nəticə onları təmin etsin. Bir də, müxalifət pariteti ancaq ona görə müdafiə edir ki, bu şansdan istifadə edərək seçkini pozsun. İndiki formatda nə YAP, nə müxalifət, nə də bitərəflər seçki komissiyalarının işini iflic edə bilməz.

### YAP hər zaman qalibdir!

Etiraf etmək lazımdır ki, YAP-ın heç bir problemi yoxdur. YAP müxalifətdən fərqli olaraq, elan olunmuş konkret proqramlar və vəzifələrlə seçkilərə gedir. Bir də tənqidçilik müxalifətçilik deyil. Yalnız tənqid əsasında heç bir partiya özünü təsdiq edə bilməz. Müxalifət tərəfindən hakimiyyətin həyata keçirdiyi siyasətdən fərqlənən uğurlu siyasət ortaya qoyulmayıb. Müxalifət özünün mahiyyətini iqtidarı, o cümlədən, YAP-ı tənqid etməkdə görür. Ona görə də, Azərbaycan cəmiyyəti müxalifətin ciddiliyinə inanmır. Bunun üçün cəmiyyətin əlində kifayət qədər əsaslar var. Müxalifət anlamalıdır ki, insanlar bu aksiyalara qoşulmaq istəmirlər. Müxalifət insanların əhəmiyyətli hissəsinin iştirak edəcəyi aksiya keçirmək iqtidarında olsaydı, çoxdan bunu etmişdi. Lakin müxalifət bu reallığı hələ də dərk etmir. Unutmaq olmaz ki, iqtidarın da, müxalifətin də güc mənbəyi yalnız xalqın dəstəyidir. Müxalifət bu birlikdən çoxdan kənarlaşdırılıb. Bunun günahını isə, müxalifət xalqda yox, özündə axtarmalıdır. Xalq yalan və böhtan danışıqlara deyil, reallığa- bu reallığı Yeni Azərbaycan Partiyasında görür. Yarandığı gündən, 28 il müddətində seçkilərə yeganə olaraq partiya şəklində qatılan və namizədlərinin sayına görə, bütün siyasi qüvvələri üstələyən Yeni Azərbaycan Partiyası, hər zaman olduğu kimi, parlament seçkilərində də cəmiyyətə bir sıra yeniliklərini təqdim edərək, bu seçkilərə də “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!” şüarı ilə gedir və bütün namizədlər təbliğat-təşviqat kampaniyası dövründə qanunvericiliyin verdiyi bütün üsul və vasitələrindən istifadə edirlər.

Göründüyü kimi, artıq seçkilərə “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!” şüarı ilə gedən Yeni Azərbaycan Partiyası bu seçkilərdə də öz qələbəsinə əmindir. Çünki bu gün YAP Azərbaycan cəmiyyəti tərəfindən dəstəklənən və etimad göstərilən yeganə və ən böyük siyasi partiyadır. YAP-ın Azərbaycanın siyasi həyatında aparıcı qüvvə olmasının əsas səbəblərindən biri bu partiyaya Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik etməsidir.

Qeyd edək ki, Azərbaycan Prezidentinin istər dövlət başçısı, istərsə də siyasi xadim kimi cəmiyyətdə olan nüfuzu, xalqın Ona inam və etibar etməsi cəmiyyətdə Onun rəhbərlik etdiyi partiyaya da inamı və dəstəyini gücləndirir. Bunu elə partiya üzvlərinin sayının 750 min nəfərdən çox olması da bir daha təsdiq edir.

Bir məqamı da vurğulamaq lazımdır ki, hər hansı siyasi partiyanın seçkilərdə qələbəsinin təmin olunmasında həmin partiyanın praktikasında seçki təcrübəsinin də böyük rolu olur. Çünki hər dəfə keçirilən seçkilər zamanı əldə olunan təcrübə siyasi partiyalar üçün qarşıdakı seçkilərdə daha aktiv və fəal iştirak üçün yeni siyasi texnologiyaların formalaşdırılması və ondan düzgün istifadə edilməsi zərurəti yaratmaqla yanaşı, həm də bir növ özündən sonrakı seçkilər üçün baza rolunu oynayır. Bu, bir real faktordur kti, Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatında mühüm rol oynayan siyasi partiya olduğundan, bu vaxta qədər ölkədə keçirilən seçkilərdə öz qələbəsini təmin etməyi bacarıb. Bunun səbəbi isə YAP-ın bir qayda olaraq, seçki kampaniyasına start verilməzdən xeyli əvvəl, seçkilərə hazırlaşmağa başlaması, bütövlükdə, seçki kampaniyasının gedişində əldə edilən bütün uğurlar və nailiyyətlər, o cümlədən, səs verməni YAP-ın qələbəsinin təmin edilməsində özünü göstərən nəticələri də seçki kampaniyasına kifayət qədər ciddi şəkildə hazırlaşması ilə əlaqədardır.

Beləliklə, xalqın partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!” şüarını seçərkən, həm də qarşıda görüləcək daha çox işlərin olduğunu sərgiləməklə yanaşı, Azərbaycanın dünya ölkələri arasında lider dövlətə çevrilməsi istiqamətində də addımlar atacağını göstərir. Məhz builki parlament seçkilərində əldə ediləcək zəfər və qalibiyyət də bu amili özündə kifayət qədər ehtiva edir.

***RƏFİQƏ KAMALQIZI***

---



## Pul-pulu gətirə bilərmi?

**İLHAM**

***Uşaqlıq xatirələrindən yadımda qalan hadisələrdən bir də budur ki, valideynlər ipə-sapa yatmayan, dəcəl uşaqlarını qorxutmaq üçün “sakit ol, yoxsa xoxan gəlib, səni aparar” deyə bildirirdilər. Nə işdirsə, həmin dəcəl uşaqlar hədədən sonra bir neçə gün sakitliyə riayət edir və bəzən də, yanına- yörəsinə boylanıb, nəsə axtarırdı, amma az sonra, ənənəsini davam etdirirdi. Bu gün cəmiyyətimizdə baş verən bəzi hadisələr dəcəl uşaqların şuluqluğuna bənzəyir.***

Ancaq bir fərq var ki, uşaqlar, sadəcə, çoxsaylı sualları və ya hay-küyləri ilə valideynlərini yoruldularsa, indiki böyüklər şuluq əməlləri ilə cəmiyyətimizə zərbələr vururlar. Düzdür, şuluqluq edən böyüklərə də, “xoxan gəlib səni apara bilər” deyilsə də, onlar dişlərini ağardıb, gülümsəməklə fəaliyyətlərini davam etdirirlər. Həm də bu kateqoriyadan olan məxluqlara ağıl vermək, düz yola çağırış etmək də mənasızdır. Çünki el məsələdir, “başdan boş adama ağıl qoymaq, qayanı qaşımaq qədər mənasızdır”. Heç də, müraciət etdiyim mövzuda “qəhrəmanlarımın” qoldan güclü, başdan o məsələ olduqlarnı demək fikrində deyiləm. Ancaq mövcud faktlar müəyyən şübhələr doğurur. Elə götürək bəzi-bəzi şuluq işlər görən ağ xalatlıları. Bu məxluqlar getdikcə, cəmiyyət üçün altdan-altdan ziyanvericilik edən məxluqlara çevrililər. Fərq etmir, bu ağ xalatlı xəstəxanada həkim işləyir, yoxsa bazarda mer-meyvə satır və ya qəssabxanada ət satır. Hamısı bir amala və əqidəyə, yəni müxtəlif qeyri-qanuni yollarla zərər vurmağa çalışırlar. Fakt. Dəfələrlə qəssabxanada ət satan ağ xalatlı satıcının, ölmüş eşşək, at və it ətlərini əhaliyə qoyun, quzu əti olaraq sırımağa çalışdıqlarını mətbuatdan oxuyub, TV-lərdə narahat baxışlarla seyr etmişik. Həbs edilənlərin əksəriyyətinin təkrar əməl sahibləri olduqlarını da eşitmiş və ya görmüşük. Bazarda meyvə-tərəvəz satan ağ xalatlı şəxsin tərəzidə alıcını çəkidə aldatdığını da görmüşük. Əminliklə demək olar ki, artıq qorxulu ağ xalatlı kabusa çevrilən bu məxluqlar kateqoriyasında, ən vahiməlisi, əynində ağ xalat olan bəzi həkimlərdir. “Hippokrat andı”na xilaf çıxan bəzi həkimlərin insan qatilinə çevrilmələrindən, ürək ağrısı ilə bəhs etməmişdən əvvəl, ölməz şairimiz Səməd Mənsurun “Ey həkim” şeirinə müraciət etmək yerinə düşərdi:

*Eşqdən qəlbimdə bir pünhan mərəz var, ey həkim!*
*Xəlqə pünhan dərdim izhar etmə zinhar, ey həkim!*

*Nə cibimdə parə, nə evdə çörək var, ey həkim!*
*Nəbzimi bihudə sıxma, çəkmə azar, ey həkim!*

*Ət yemək pəhrizini əmr etmə kim bazarda,*
*Hər qədər axtarsa, ət tapmaz xiridar, ey həkim.*

Bəli, bəzi həkimlər otağına daxil olmaqda olan xəstəyə “kliyenti” kimi baxır. Xəstəni danışdırıb, əyninə-başına altdan-altdan göz gəzdirib, onun hansı imkana malik olduğunu müəyyənləşdirməyə çalışır. Açıq desək, həkim xəstəni müayinə və ya əməliyyat etdikdən sonra, sonda özünü alverçi kimi aparır, qiymət sövdələşməsi edir. Bir məlum fakt da var ki, bu ağ xalatlı həkim xəstəni düzgün əməliyyat edə bilmədiyindən, xəstə həyatını itirir. Statistik məlumatlara əsasən, son vaxtlar demək olar ki, Azərbaycanda həkimlərin səhvi, bacarıqsızlığı nəticəsində əmək qabiliyyətini itirən, doğuş zamanı ana və uşaq ölümləri, ürək, qaraciyər əməliyyatları zamanı cərrahiyyə masasında ölənlərin sayı daha çoxdur. Həmin ağ xalatlılara qarşı isə, heç bir hüquqi tədbir görülməyir. Bu isə, qanunvericiliyin tələblərinə ziddir. Çünki həkimin cinayət məsuliyyətinə cəlb edilməsi “Əhalinin sağlamlığı haqqında” Qanunla, “İnzibati xətalar Məcəlləsi” və Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə tənzimlənir. Ən rüsvayçı hal isə, ondan ibarətdir ki, həkim səhlənkarlığı səbəbindən, həyatlarını itirən xəstələrə görə, ödənilən pul sonradan geri qaytarılmır. Bu isə, insani dəyrələrin bu tip həkimlər üçün əhəmiyyətsiz olduğunu və onlar üçün başlıca prinsipin pul olduğunu göstərir. Belələrinə qınaq xarakterli hansı adın verilməsinin müsbət nəticə verəcəyini isə, cəmiyyət fikirləşib tapmalıdır.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

## Son səhifə

30 yanvar



Azərbaycanlı hakimlər növbəti dəfə digər ölkənin yüksək liqasının vacib oyununa təyinat alıb. Bu haqda AFFA-nın saytı məlumat yayıb. Yunanıstan Futbol Federasiyasının dəvətinə əsasən, FIFA referisi Əliyar Ağayevin rəhbərlik etdiyi hakimlər briqadası Yunanıstan Super Liqasının 22-ci turu çərçivəsində fevralın 2-də keçiriləcək “Panatinaikos” - PAOK oyununu idarə edəcək. Əliyar Ağayevə Zeynal Zeynalov və Akif Əmirəli kömək edəcəklər. Xatırladaq ki, Əliyar Ağayev ötən ilin mart ayında Superliqada PAOK - “Atromitos” matçına da təyinat almışdı.

## Əliyar Ağayev Yunanıstan derbisini idarə edəcək

## “Sport ekspress” nəşri Tofiq Bəhramovdan yazdı




*Rusiyada çıxan “Sport ekspress” nəşrində Azərbaycan futbolunun əfsanəvi arbitri Tofiq Bəhramovun 95 illiyinə həsr olunmuş material dərc olunub.*

AZƏRTAC xəbər verir ki, materialda deyilir: “Yanvarın 29-da əfsanəvi sovet arbitri Tofiq Bəhramovun anadan olmasının 95 illiyi tamam olur. Tofiq Bəhramov öz karyerası ərzində keçmiş Sovet İttifaqı çempionatının və beynəlxalq turnirlərin matçlarında, o cümlədən 1970-ci il dünya çempionatının Braziliya ilə Uruqvay arasında keçirilən yarımfinal oyununda, habelə Qitələrarası Kubok uğrunda “İndependyente” ilə “Ayaks” arasında oyunda hakimlik edib.

Məqalədə daha sonra deyilir: “1966-cı il dünya çempionatının İngiltərə ilə AFR (4:2) arasında final oyunu Bəhramovun ən məşhur matçı olub. Arbitr bu oyunda isveçrəli Qottfrid Dinstin assistenti idi. Əlavə vaxtda, 101-ci dəqiqədə top Ceff Herstin zərbəsindən sonra dirəyə dəyərək yerə düşür və meydana dığırlanır. Dinst topun xətti keçdiyini görmədiyinə görə məsləhətləşmək üçün Bəhramovun yanına qaçır. Bəhramov əminliklə mərkəzi göstərir. İngilislərin həlledici topu hesaba alınır, 120-ci dəqiqədə isə Herst görüşün qəti hesabını müəyyən edir və dünya çempionatlarının finallarında birinci və həlelik yeganə het-trek müəllifi olur”.

Nəşr yazır ki, Tofiq Bəhramovun qərarının ədalətliliyi barədə hələ də mübahisə edirlər. 2016-cı ildə “Sky Sports” kanalı həmin məqamı kompüterdə canlandıraraq bu qənaətə gəlir ki, qol hər halda olub. “Sport ekspress” nəşri sonda yazır: “Tofiq Bəhramov 1993-cü il 68 yaşında vəfat edib. Ölümündən sonra Azərbaycanın əsas stadionu əfsanəvi arbitrin adını daşımağa başlayıb”.

## İran: “ABŞ-ın “Əsrin razılaşması” planı “Əsrin dələduzluğu”dur”



İran ABŞ Prezidenti Donald Trampın Fələstin-İsrail münaqişəsinin həlli üçün təqdim etdiyi “Əsrin razılaşması” planının əleyhinədir. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif deyib. Nazir bildirib ki, bu plan regiona fəlakətdən başqa bir şey verməyəcək. Qüds şəhərinin ABŞ tərəfindən İsrailin yeni paytaxtı hesab edilməsi müsəlmanlar üçün qəbuledilməzdir. Buna qətiyyən yol verməK olmaz.

İranın Ali Rəhbəri Əli Xamneyi də ABŞ Prezidentinin planını tənqid edib və dünya müsəlmanlarını bu plana qarşı çıxmağa çağırıb. İran parlamentinin sədri Əli Laricani isə D.Trampın “Əsrin razılaşması” planını “Əsrin dələduzluğu” adlandırıb.

## Üç ölkənin tanınmış opera ulduzları Bakıya gələcək




Fevralın 22-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Cakomo Puççininin “Bohema” operası nümayiş olunacaq. Teatrın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səhnə əsərində əsas partiyaları ifa etmək üçün Ukrayna Milli Operasının solisti, Ukraynanın Əməkdar artisti Tatyana Qanina (Mimi), Odessa Milli Akademik Opera və Balet Teatrının aparıcı solisti, vokalçıların beynəlxalq müsabiqələrinin qalibi Eduard Martınyuk (Rudolf) və Belarus Milli Akademik Böyük Opera və Balet Teatrının aparıcı solisti, Belarusun Əməkdar artisti, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Vladimir Qromov (Marsel) dəvət edilib.

## Rakitiçin xanımı onun “Mançester Yunayted”ə keçidinə icazə vermədi



“Barselona”nın yarımmüdafiəçisi İvan Rakitiçin “Mançester Yunayted”ə keçidi baş tutmayıb. Qol.az “The Sun” nəşrinə istinadən xəbər verir ki, xorvat futbolçunun həyat yoldaşı Rakel ərinin İngiltərədə oynamasına imkan verməyib. Buna səbəb kimi onun Barselonada yaşamaq istəyi göstərilib. Qeyd edək ki, İvan və Rakel 2011-ci ildə tanış olublar. Onlar 2013-cü ildə ailə qurublar.

## Rusiya ölkəyə gələn əcnəbilərdən tibbi arayış tələb edəcək



Rusiya Daxili İşlər Nazirliyi (DİN) ölkəyə gələn əcnəbilərdən tibbi arayış tələb edəcək. Rusiya Daxili İşlər Nazirliyi ölkəyə gələn əcnəbilərin məcburi qaydada daktiloskopiya prosedurundan keçməsini və tibbi arayış təqdim etməsini planlaşdırır. Bu barədə DİN-in Miqrasiya Məsələləri üzrə Baş İdarəsinin rəisi Valentina Kazakova jurnalistlərə məlumat verib. Onun sözlərinə görə, bu tədbirlər xəstəliklərin yayılması ilə əlaqədardır. Hazırda Rusiyaya işləmək və ya bu ölkədə müvəqqəti yaşamaq hüququ, eləcə də Rusiya vətəndaşlığı almaq istəyən şəxslər tibbi arayış təqdim edirlər.

## Şabran rayon sakinindən tapança götürülüb



Polis əməkdaşları əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkarlanması istiqamətində növbəti əməliyyat-axtarış tədbiri həyata keçiriblər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 20-ci polis bölməsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Şabran rayon sakini, əvvəllər məhkum olunmuş Z.Məlikovdan “Minta-37” markalı tapança və üç patron aşkar edilərək götürülüb. Faktla əlaqədar cinayət işi başlanıb.

## Elan

Şirvan şəhəri Heydər Əliyev pros.11/15 ünvanına Atakişiyev Nizami Qəni oğlunun adına verilmiş N6-109 29.06.2001-ci il tarixli Qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600